

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 14 oktyabr 2023-cü il, şənbə / № 188 (6532). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# 20 il çiyin-çiyinə!



## Bu dəstək mübariz Lider, güclü Prezident, müzəffər Ali Baş Komandan portretini uğurla tamamlayır

Bax səh. 4

## Vətən müharibəsinin 18-ci günü

### 14 oktyabr 2020

İlham Əliyev
@azpresident

"Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Translate Tweet

3:40 PM · Oct 14, 2020 · Twitter Web App

### 15 oktyabr

İlham Əliyev
@azpresident

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

5:40 PM · Oct 15, 2020 · Twitter Web App

### 16 oktyabr

İlham Əliyev
@azpresident

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

6:21 PM · Oct 16, 2020 · Twitter for iPhone

# Azərbaycan xalqı tarixi günlərin qürurunu yaşayır

Bax səh. 3




Bax səh. 2

## Tranzit-nəqliyyat sahəsində etibarlı tərəfdaş

### İlham Əliyev: İqtisadi əlaqələrimizin möhkəmlənməsi müsbət nəticə verir

## Obyektiv qərar verilməlidir!

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin etməklə regionda yeni reallıqlar yaradıb. Artıq bir çox ölkələr və beynəlxalq təşkilatlar dövlətimizin yaratdığı yeni reallıqları qəbul edir, Azərbaycanın Cənubi Qafqazda sülh və əməkdaşlıq təşəbbüslərini dəstəkləyirlər. Lakin Azərbaycanın öz ərazi bütövlüyünü, suverenliyini təmin etməsi, artan gücü Ermənistanı və onun havadarlarını ciddi şəkildə narahat edir. Xüsusilə, ötən ay 24 saatlıq antiterror tədbirləri nəticəsində Qarabağda qanunsuz erməni silahlı birləşmələrinin təslim olması və qanunsuz rejimin özünü buraxması Ermənistana və havadarlarına rahatlıq vermir. Məhz bu səbəbdən də vaxtaşırı olaraq ölkəmiz haqqında obyektivlikdən kənar məlumatlar dövriyyəyə buraxılır.

Nə qədər paradoksal olsa da, Ermənistan Azərbaycanın antiterror tədbirləri ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinə şikayət edib. Oktyabrın 12-də isə Beynəlxalq Ədalət Məhkəməsində İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi (Ermənistan Azərbaycana qarşı) haqqında ictimai dinləmələrin keçirilib.

Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov Beynəlxalq Ədalət Məhkəməsində Ermənistanın Azərbaycana qarşı müraciəti üzrə dinləmələrdə çıxış edərkən bildirib ki, sentyabrın 19-20-də keçirilən lokal antiterror təd-

Bax səh. 3

## "Sözümüz imzamızdır: 20 il"



Bax səh. 5

## Ai vasitəçiliyi davam etdirmək istəyirsə...

44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan dövləti Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün təşəbbüslərlə çıxış edib. Ermənistanla sülh sazişi imzalamaq təklifi də ilk olaraq Azərbaycan tərəfindən verilib. Münaqişə başa çatdıqdan sonra xalqımızın uzun illər ərzində məruz qaldığı əzab-əziyyətə, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, Azərbaycan Ermənistanla davamlı sülhün təmin edilməsi istiqamətində fəal iş aparır. Məqsəd regionun sülh, sabitlik və əməkdaşlıq məkanına çevrilməsidir.

Hazırda bölgədə sülhün...

Bax səh. 3

## Mina terrorunun qurbanları artır

Ermənistanın mina terroru davam edir. Oktyabrın 13-də Füzuli rayonunun Aşağı Veysəlli kəndi ərazisində minalardan təmizlənməyən ərazidə mina hadisəsi baş verib. Bu barədə Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) mətbuat xidmətləri birgə məlumat yayıb. Bildirilib ki, ilkin məlumata əsasən tank əleyhinə mina partlayışı nəticəsində "QAZel" markalı maşının sürücüsü 1987-ci il təvəllüdlü Əbilov Famil İlyas oğlu həlak olub. "KamAZ" tipli yük maşınının sürücüsü 2000-ci il təvəllüdlü Bayramov Namaz Nəbadi oğlu isə xəsarət alıb.

Daxili İşlər Nazirliyi (DİN) və ANAMA bir daha vətəndaşları məsuliyyətli...

Bax səh. 3

## Daha bir post ləğv edildi...

Sentyabr ayında Azərbaycan Ordusunun həyata keçirdiyi 24 saatlıq antiterror tədbirlərindən sonra regionda yeni vəziyyət yaranıb. Artıq separatçılar təslim olub və qanunsuz rejim özünü buraxıb. Qarabağdakı erməni sakinlərin əksəriyyəti isə könüllü şəkildə Ermənistana gedib. Rəsmi Bakı Qarabağın erməni sakinləri ilə reinteqrasiya prosesinə start verib. Artıq bəzi ermənilər Azərbaycan vətəndaşlığı almaq üçün müraciət ediblər.

Qarabağda separatizmin ləğv edilməsindən sonra Rusiya sülhməramlı kontingentinin bölgədə qalıb-qalmaması da müzakirə mövzusuna çevirilib. Xatırladaq ki, antiterror tədbirlərindən sonra sülhməramlıların bəzi postlarının ləğv olunması prosesinə start verilib...

Bax səh. 6

## 30 il susan...

### AŞPA-dan növbəti qərəz

2020-ci ildə Azərbaycanın öz ərazi bütövluyünü, 2023-cü ildə isə bütün ərazilərində suverenliyini birmənalı şəkildə təmin etməsi erməni lobbisini, onların havadarlarını məyus etdi. 30 ilə yaxın müddətdə guya "möhkəmləndirilən" qondarma xunta rejiminin cəmisi 24 saata "süqut etməsi" onların planlarını pozub - bununla yanaşı, Azərbaycanın bölgədə güclənməsi, Cənubi Qafqazın real liderinə çevrilməsi, yeni əməkdaşlıqlar platforması ilə bağlı anonslar səsləndirməsi onları "yenidən hərəkətə" gətirir. Bu mənada, artıq bir neçə beynəlxalq "təsisatın" anti-Azərbaycan xarakterli "qətnamələrinin", "qərarlarının" şahidinə çevrilməkdəyik...

Bax səh. 6



# İlham Əliyev: İqtisadi əlaqələrimizin möhkəmlənməsi müsbət nəticə verir



## Tranzit-nəqliyyat sahəsində etibarlı tərəfdaş

Oktyabrın 13-də Bişkekdə Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.

İclasda iştirak edən dövlət başçıları birgə foto çəkdirdilər.

Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi.

İclasda çıxış edən Prezident İlham Əliyev tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğızıstan Prezidenti Sadır Japarova təşəkkürünü bildirib. Qırğızıstan ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişafından məmnun olduğunu bildirən dövlətimizin başçısı söyləyib ki, prezidentlərin qarşılıqlı səfərləri zamanı əldə olunmuş razılaşmalar yerinə yetirilir: "Azərbaycan Qırğızıstanda investisiya layihələrini həyata keçirməyə başlayıb. Əməkdaşlığı dərinləşdirmək məqsədilə Azərbaycan-Qırğızıstan İnvestisiya Fondu yaradılıb. Fürsətdən istifadə edərək Qırğızıstan rəhbərliyini ölkənin sosial-iqtisadi inkişafında uğurları münasibətilə təbrik etmək istərdim".



Rusiya Federasiyasının növbəti ildə MDB-də sədrliyinin həyata keçirilməsində bu ölkənin prezidenti Vladimir Putinə uğurlar diləyən dövlətimizin başçısı bu tədbiri əlamətdar edən hadisəyə toxunub: "Tədbirimizin əlamətdar hadisəsi Özbəkistan Prezidenti, hörmətli Şavkat Miromonoviç Mirziyoyevin MDB-nin Fəxri Nişanı ilə təltif edilməsidir. Şavkat Miromonoviçi bu layiqli mükafata görə təbrik edirəm. Qardaş Özbəkistanla bağlı olan digər mühüm hadisə Səmərqənd şəhərinin 2024-cü ildə "Birliyin mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı qərardır".

Humanitar sahə MDB çərçivəsində əsas istiqamətlərdən biri olduğunu vurğulayan Prezident İlham Əliyev Azərbaycanın bu sahədə əməkdaşlığın inkişafına böyük töhfə verdiyini bildirib: "Azərbaycanın 2025-ci ildə üçüncü MDB Oyunlarının keçirilməsi üzrə namizədliyini dəstəklədikləri üçün həmkarlarıma minnətdarlığımı bildirmək istərdim. Əminəm ki, üçüncü MDB Oyunları idman sahəsində əməkdaşlığımızı möhkəmləndirməklə yanaşı, Birlik məkanında uğurlu qarşılıqlı fəaliyyətimizin daha bir nümayişi olacaq".

Azərbaycan Prezidenti Belarus Prezidenti Aleksandr Lukaşenkonu ikinci MDB Oyunlarının uğurla keçirilməsi münasibətilə təbrik edib.



"Hörmətli həmkarlar, iqtisadi əlaqələrimizin möhkəmlənməsi müsbət nəticə verir. Keçən il Azərbaycan ilə MDB ölkələri arasında əmtəə dövriyyəsinin həcmi təxminən 30 faiz artıb. Bu il artım 20 faizdən də çoxdur" -deyən dövlətimizin başçısı Azərbaycanın MDB-nin bir çox ölkələri üçün tranzit-nəqliyyat sahəsində etibarlı tərəfdaşı olduğunu bəyan edib. "MDB-nin bir çox üzv ölkələri Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə Azərbaycanın tranzit imkanlarından fəal istifadə edirlər. Bu iki nəqliyyat dəhlizinin ötürmə qabiliyyətinin genişləndirilməsi üzrə həyata keçirilən və perspektiv layihələr ölkələrimizin nəqliyyat təhlükəsizliyinin möhkəmlənməsi işinə və əmtəə dövriyyəsinin artırılmasına xidmət edəcək" - deyə Prezident İlham Əliyev fikirlərinə əlavə edib.

Çıxışının sonunda tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğızıstan Prezidentinə təşəkkürünü bildirən dövlətimizin başçısı sammitin nəticələrinin gələcəkdə əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəyinə əmin olduğunu vurğulayıb.

***

Sonra MDB Dövlət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirdi.

Qırğızıstan Prezidenti Sadır Japarov iclasda aparılan müzakirələrin MDB-yə üzv ölkələr arasında əməkdaşlığın inkişafına töhfə verəcəyini vurğuladı. Sadır Japarov MDB-yə sədrliyin Qırğızıstandan Rusiyaya keçdiyini elan etdi.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ölkəsinin MDB-yə sədrliyi dövründə prioritet hədəfləri barədə məlumat verdi. Vladimir Putin MDB Dövlət Başçıları Şurasının növbəti iclasının gələn ilin oktyabrında Moskvada keçiriləcəyini vurğuladı.

İclasda çıxış edən MDB-nin Baş katibi Sergey Lebedev imzalanacaq sənədlər barədə məlumat verdi.

Daha sonra sənədlər imzalandı.

Bununla da MDB Dövlət Başçıları Şurasının iclası başa çatdı.

***

Oktyabrın 13-də Bişkekdə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin MDB-nin Fəxri nişanı ilə təltif olunması mərasimi keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.

***

Sonra Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən dövlət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri oktyabrın 13-də başa çatıb.

# Azərbaycan ilə Rusiya arasında əlaqələr

## Çoxşaxəli və strateji xarakter daşıyır

Cənubi Qafqazın lider dövləti olan Azərbaycan milli maraqlara əsaslanan, səmərəli və praqmatik xarici siyasət həyata keçirir. Eyni zamanda, ölkəmiz regionda sabitləşdirici aktor kimi fəaliyyət göstərməklə bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. 2020-ci il Vətən müharibəsi, 2023-cü il antiterror tədbirlərinin ardından ölkəmiz regional güc mərkəzi kimi bölgədə sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Uğurlu və praqmatik xarici siyasət Azərbaycanın beynəlxalq mövqeyinin mütəmadi olaraq möhkəmlənməsini təmin edib, respublikamızla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır, eyni zamanda, əməkdaşlıqların mahiyyəti və xarakteri dəyişir, keyfiyyət etibarı ilə yenilənir. Bu mənada, Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlıq mövcuddur

### Əmtəə dövriyyəsi və kənd təsərrüfatı...

Oktyabrın 12-də Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü zamanı da ikitərəfli əlaqələrin inkişafı ilə bağlı bir sıra mühüm məqamlara toxunulub, müzakirələr aparılıb. Prezident İlham Əliyev bildirib ki, bu ilin həm əmtəə dövriyyəsi, həm sənaye kooperasiyası, həm də nəqliyyat sahəsində əməkdaşlıq üzrə nəticələri olduqca yaxşıdır. Çoxlu layihələr var.

Qeyd olunduğu kimi, Azərbaycan-Rusiya əlaqələri çoxşaxəli səciyyə daşıyır. Həyatın elə bir sahəsi yoxdur ki, iki qonşu ölkə sıx əməkdaşlıq etməsin. Azərbaycanla Rusiya arasında siyasi, humanitar və mədəni əməkdaşlığın yüksək səviyyəsinə uyğun olaraq ikitərəfli iqtisadi əlaqələr də çox uğurla inkişaf edir. Bu ilin ilk yarısında Rusiya Azərbaycanın üçüncü xarici ticarət tərəfdaşı olub. 2023-cü ilin yanvar-iyun aylarında Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsi 2 milyard 164 milyon 562 min dollar təşkil edib. Bu göstərici 2022-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 37,6 faiz çoxdur. Bu dövrdə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 8,27 faizi Rusiya ilə ticarət əməliyyatlarının payına düşüb və Rusiya Azərbaycanın üçüncü xarici ticarət tərəfdaşı olub.

Bu il Azərbaycan ən çox Rusiyadan mallar idxal edib və idxalda kəskin artım müşahidə olunub. Belə ki, bu ilin 6 ayında Rusiyadan ölkəmizə 1 milyard 543 milyon 428 min dollarlıq məhsullar gətirilib. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 30,5 faiz çox deməkdir. Bu ilin 6 ayında Azərbaycanın ümumi idxalının 18,83 faizi Rusiyanın payına düşüb.

Dövlət başçıları arasında söhbət zamanı kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsinin önəminə də toxunulub. Təbii ki. statistik rəqəmlər bu sahədə də mühüm əməkdaşlığın formalaşdığını deməyə əsas verir. Belə ki, bu ilin əvvəlindən Rusiya Azərbaycana buğda, un, diri mal-qara, quş əti, yumurta, kartof və digər məhsulların tədarükünü artırıb. Azərbaycan isə süd məhsulları, nar və çəyirdəkli meyvələr, qoz-fındıq tədarükünü artırıb və Rusiyaya pomidor, xurma, alma və kartof ixracında ənənəvi olaraq lider mövqeyini qoruyub saxlayır. Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmətinin ("Rosselxoznadzor") məlumatına görə, Azərbaycan və Rusiya Federasiyası arasında kənd təsərrüfatı sahəsində ticarət dövriyyəsi 959 milyon ABŞ dolları təşkil edib. Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsullarının tədarükü dəyər ifadəsində 465 milyon dollar, Rusiyadan Azərbaycana isə 494 milyon dollar olub.

### Regionlar arasında əlaqələrə yeni töhfələr...

Bildirildiyi kimi, regionlararası əməkdaşlıq məsələsi ikitərəfli əlaqələrdə xüsusi yer tutur. Görüşdə həmçinin Azərbaycanın Rusiyanın 70 regionu ilə uğurlu əməkdaşlığı qeyd edilib, bu xüsusda mütəmadi əsasda keçirilən regionlararası forumun vacib platforma olduğu bildirilib.

Ümumiyyətlə, iki güclü region dövlətinin əməkdaşlığının spektri kifayət qədər genişdir. Neft-qaz sahəsində əməkdaşlıq Azərbaycanla Rusiya arasında iqtisadi münasibətlərin ənənəvi və çox mühüm həlqəsini təşkil edir. Azərbaycanla Rusiya arasında uğurlu iqtisadi əməkdaşlığın digər bir mühüm istiqaməti elektroenergetika sektorudur. İki ölkənin enerji şəbəkələrinin birləşdirilməsi və bunun praktiki nəticələri müsbət qiymətləndirilir. Turizm sektorunda iki ölkə arasında əməkdaşlığın dərinləşməsi üçün geniş potensial mövcuddur. Azərbaycanın turizm marşrutları Rusiyada getdikcə daha çox populyarlıq qazanır. Rusiya regionlarının turizm potensialının Azərybaycanda təbiliği, eyni zamanda Azərbaycanın mühüm turistik zona kimi Rusiyada böyük şöhrət qazanması ikitərəfli münasibətlərdə xüsusi yer tutur. Rusiya regionlarının Azərbaycanın bölgələri, hətta Bakı rayonları ilə dostluq əlaqələri qurması, qarşılıqlı səfər lərin reallaşması münasibətlərin dinamizm qazanmasına xüsusi töhfə verir.



### Layihələrdə birgə iştirak...

Dövlət başçıları arasında söhbət zamanı Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafından, onun potensialının genişləndirilməsindən və bütövlükdə, həm dəmir yolu, həm də avtomobil yolları vasitəsilə yükdaşımaların həcminin bu marşrut boyunca artmasından məmnunluq ifadə olunub.

Qeyd edək ki, Azərbaycanın da iştirakçısı olduğu Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında razılaşma Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 2000-ci il sentyabrın 12-də Sankt-Peterburqda imzalanıb. Razılaşma 2002-ci il mayın 21-dən qüvvəyə minib. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Körfəz ölkələri və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaratmaq imkanına malikdir.

Ümumiyyətlə, bu dəhliz hər zaman olduqca strateji bir layihə kimi dəyərləndirilib. Nəzərə alınmalıdır ki, bu dəhliz də Azərbaycandan keçir və ölkəmizin mühüm nəqliyyat qovşağı kimi cəlbediciliyini artırır. Diqqət yetirsək görərik ki, mürəkkəb regionda geostrateji qütblər arasında münasibətlərin daha da kəskinləşdiyi bir vaxtda Azərbaycan məhz burada körpü rolunu oynamaqla özünün milli maraqlarını təmin edir. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi istiqamətində çox böyük həcmdə yük daşımaları var. Bu yük daşımaları, qısa zaman kəsiyində təyinat nöqtəsinə çatdırıla bilir. Xüsusi vurğulanmalıdır ki, Azərbaycan bu layihəyə qoşulduqdan sonra Prezident İlham Əliyevin irəli sürdüyü təkliflər səmərəli və cəlbedici oldu. Məhz bu səmərəlilik ondan ibarətdir ki, yüklərin daşınması xərci azalır və çatdırılması vaxtı qısalır.

Bu dəhliz, sadəcə, müddət baxımından deyil, həm də onun ətrafında olan siyasi-inzibati coğrafiyada ümumi təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır - Azərbaycanın Vətən müharibəsi dövründə və antiterror tədbirləri zamanı bölgədə təhlükəsizlik mühtini daha da möhkəmləndirməsi bu məsələdə əhəmiyyətli rol oynayır.

### Humanitar əlaqələrin inkişafı...

İki dövlət arasındakı münasibətlər yalnız siyasi-iqtisadi müstəvidə məhdudlaşmır. Vurğulanmalıdır ki, Azərbaycan ilə Rusiya arasında humanitar əlaqələr də daima yüksək olub. Ölkəmizdə rus dilinə göstərilən qayğı, Bakıda Slavyan Universitetinin fəaliyyəti, o cümlədən ölkəmizdəki rus icmasına göstərilən diqqət hər zaman Rusiya dövlətinin rəhbərliyi tərəfindən yüksək dəyərləndirilib. Bununla yanaşı, qarşılıqlı şəkildə iki ölkənin gənclərinin Rusiyada və Azərbaycanda təhsil almaları üçün yaradılan şərait dövlətlərarası münasibətlərdə ən mühüm prioritetlərdən sayılıb. Bunun nəticəsidir ki, 15 mindən çox Azərbaycan vətəndaşı Rusiyanın ali məktəblərində təhsil alır.

Təsadüfi deyil ki, iki dövlətin prezidenti arasında keçirilən görüşdə də humanitar sahədə əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanıb, bu baxımdan Azərbaycanda rus dilinə qayğı, xeyli sayda ali və orta təhsil müəssisəsində rus dilinin tədrisi qeyd edilib.

***P.İSMAYILOV***

# Aİ vasitəçiliyi davam etdirmək istəyirsə...

## Beynəlxalq hüququ və ədalət prinsipini əsas götürməlidir

*Nardar BAYRAMLI*

44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan dövləti Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün təşəbbüslərlə çıxış edib. Ermənistanla sülh sazişi imzalamaq təklifi də ilk olaraq Azərbaycan tərəfindən verilib. Münaqişə başa çatdıqdan sonra xalqımızın uzun illər ərzində məruz qaldığı əzab-əziyyətə, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, Azərbaycan Ermənistanla davamlı sülhün təmin edilməsi istiqamətində fəal iş aparır. Məqsəd regionun sülh, sabitlik və əməkdaşlıq məkanına çevrilməsidir.

Hazırda bölgədə sülhün təmin olunması məqsədilə bir sıra beynəlxalq platformalar çərçivəsində müzakirələr aparılır. Azərbaycan regionda sülhün bərqərar olması naminə irəli sürülən beynəlxalq təşəbbüsləri dəstəkləyir. Lakin bu təşəbbüslər birtərəfli olmamalı, beynəlxalq hüquq normalarına və ədalət prinsiplərinə əsaslanmalıdır. Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində vasitəçilik edən beynəxalq aktorlardan biri də Avropa İttifaqıdır. Belə ki, İkinci Qarabağ müharibəsi bitdikdən sonra Cənubi Qafqazda sülhün təmin olunması üçün Avropa İttifaqı müəyyən təşəbbüslərlə çıxış etdi. Təşkilatın prezidenti Şarl Mişelin vasitəçiliyi ilə 2021-ci ilin dekabr ayında Brüsseldə Azərbaycan və Ermənistan liderlərinin ilk görüşü keçirildi. Bundan sonra, cari il də daxil olmaqla Brüssel formatı çərçivəsində liderlərin bir neçə görüşü baş tutub.



Lakin sentyabr ayında ordumuzun Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirlərindən sonra Avropa İttifaqının mövqeyində ədalətsiz yanaşma sezildi. Halbuki, antiterror tədbirləri nəticəsində dövlət suverenliyimizin tam bərpa olunması ümumilikdə regionda təhlükəsizliyin möhkəmlənməsi və sülhə nail olunması üçün imkanlar yaradır. Antiterror tədbirlərindən sonra Şarl Mişel "Euronews" kanalına müsahibə verərək qeyri-obyektiv münasibət sərgiləyib. Bundan əlavə, Qranadada Avropa Siyasi Birliyinin sammiti çərçivəsində keçirilən Aİ, Almaniya, Fransa və Ermənistan liderlərinin dördtərəfli görüşündə Azərbaycanın iştirakı olmadan bəyanatın qəbul edilməsi, eləcə də bəyanatda qeyri-obyektiv məqamların yer alması qəbuledilməzdir. Bu məsələ oktyabrın 7-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Prezident İlham Əliyevə telefon zəngi zamanı da diqqət mərkəzində olub. Dövlətimizin başçısı qeyd edib ki, Qranadada Azərbaycanın iştirakı olmadan Azərbaycan adının dördtərəfli bəyanata daxil edilməsi düzgün yanaşma deyil. Eyni zamanda, dövlətimizin başçısı Avropa Parlamenti tərəfindən ksenofob və şovinist yanaşma əsasında qəbul edilmiş anti-Azərbaycan xarakterli bəyanatın, orada səsləndirilən fikirlərin qəbuledilməz olduğunu diqqətə çatdırıb, bunun regionda sülhün və sabitliyin təmin olunmasına xidmət etmədiyini deyib. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan beynəlxalq hüquqa və BMT-nin Nizamnaməsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə edərək suverenliyini tam şəkildə təsbit edib və öz ərazisində mövcud olan qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsini təmin edib. Bu baxımdan Azərbaycanın atdığı addımlar beynəlxalq hüquqa tam şəkildə uyğun olub. Dövlətimizin başçısı əlavə edib ki, əksinə, bu məsələni başa düşməyən dövlətlərin özlərinin dünyanın müxtəlif bölgələrində həyata keçirdikləri siyasətlərinə görə beynəlxalq hüquqla ciddi problemləri var. Prezident İlham Əliyev mərkəzi hökumət tərəfindən Qarabağdan olan erməni sakinlərə humanitar yardımların göstərildiyini və onların qeydiyyatı prosesinin başlandığını bildirib. Azərbaycan Prezidenti vurğulayıb ki, məhz qondarma rejim erməniləri ərazini tərk etməyə və oradan köçməyə məcbur edib.

Bununla belə, dövlətimiz sülh prosesi çərçivəsində Brüsseldə üçtərəfli görüşlərin davam etməsinə maraqlıdır. Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın bugünlərdə regiona səfəri zamanı da bu məsələlər diqqət mərkəzində olub. Qeyd edək ki, oktyabrın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar ilə görüşüb. Görüşdə tərəflər Azərbaycan ilə Ermənistan arasında sülh sazişi layihəsinin perspektivləri, iki ölkə arasında normallaşma məsələləri, bölgədəki son vəziyyət, Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni əhalisinin reinteqrasiyası istiqamətində atılan addımlar ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov Azərbaycan tərəfinin sülh gündəliyi üzrə Avropa İttifaqı da daxil olmaqla, beynəlxalq tərəfdaşların vasitəçiliyi ilə həyata keçirilən görüşlərin müsbət nəticələnməsində maraqlı olduğunu, 30 il sonra bölgədə sülh və sabitliyin təmin edilməsi naminə tarixi imkanın yarandığını vurğulayıb. Bu xüsusda, Ermənistan tərəfindən revanşizmə gətirə biləcək açıqlama və bəyanatların verilməsindən, ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasından çəkinməyin vacibliyi diqqətə çatdırılıb. Görüşdə nazir Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni sakinlərinin reinteqrasiyası istiqamətində aparılan işlər barədə qarşı tərəfi məlumatlandırıb, hazırda tərəfimizdən yaradılmış elektron portal vasitəsilə yerli erməni sakinlərin qeydiyyatı prosesinin davam etdirildiyini bildirib. Həmçinin erməni sakinlərin Azərbaycan ərazisini tərk etməsinin hər hansı bir məcburi yerdəyişmə ilə əlaqədar olmadığı diqqətə çatdırılaraq BMT rəsmilərinin bölgəyə son səfərləri və səfər sonrası verilən açıqlamaların bunun bariz nümunəsi olduğu qeyd olunub. Görüşdə tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparıblar.

Oktyabrın 12-də isə T.Klaar Ermənistanda səfərdə olub. O, səfər zamanı baş nazir Nikol Paşinyan, xarici işlər naziri Ararat Mirzoyanla görüşüb. R egionda vəziyyət, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, Brüssel formatı çərçivəsində üçtərəfli görüşlərin keçirilməsi məsələləri müzakirə olunub. Beləliklə, Avropa İttifaqı Cənubi Qafqazda sülhün təmin olunmasına töhfə vermək istəyirsə, beynəlxalq hüququ və ədalət prinsipini əsas götürməlidir.



# Azərbaycan xalqı tarixi günlərin qürurunu yaşayır

## Kəlbəcər rayonu, Mollabayramlı kənd camaatı Prezident İlham Əliyevə müraciət edib

Prezident İlham Əliyevin uzaqgörən, prinsipial və milli maraqlara əsaslanan siyasəti nəticəsində dövlətimiz və xalqımız qarşıya qoyduğu müqəddəs vəzifələrin yerinə yetirilməsinə-ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa edilməsinə nail olub. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, ordumuzun Qarabağda lokal xarakterli antiterror tədbirləri nəticəsində isə sentyabrın 20-də suverenliyimizi tam bərpa etdik. Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması və tam şəkildə tərk-silah olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk etməsi, qeyri-qanuni erməni silahlı dəstələrinin buraxılması, eyni zamanda, paralel şəkildə bütün silah-sursat və ağır texnikanın təhvil verilməsi Azərbaycanın növbəti Qələbənin təntənəsidir.

Beləliklə, bu tarixi zəfər müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin dövlət başçısı kimi 20 illik fəaliyyətinin ən yüksək zirvəsini təşkil edir. Bu möhtəşəm qələbə xalqımız tərəfindən böyük qürurla qeyd olunur. Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrinin nümayəndələri, o cümlədən işğaldan azad olunmuş ərazilərin sakinləri Prezidentə müraciət edərək öz minnətdarlıqlarını ifadə edirlər.

Kəlbəcər rayonu, Mollabayramlı kənd camaatının da müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə müraciətində qeyd olunur ki, Azərbaycan xalqı bu tarixi günlərin qürurunu yaşayır. Müraciətdə vurğulanır: "Biz Azərbaycan xalqının kiçik bir toplumu olan Kəlbəcər rayonu, Mollabayramlı kənd cammatı olaraq bu minnətdarlığı yazmağı özümüzə borc bildik. Sizin rəhbərliyiniz altında Azərbaycan xalqı bu tarixi günlərin qürurunu yaşayır. Bu qürur hissinin yaşanmasında qəhrəman oğullarımızı şəhid versək də, çoxsaylı qəhrəman əsgər və zabitlərimiz əlil olsa da ancaq Dövlətimizin ərazi bütövlüyü və suverenliyi bərpa olunduğu üçün Onların qanı yerdə qalmadı. Belə bir xalq bayatımız var:

**Əzizim, Ordubada,**<br>
**Səlmasdan Ordubada.**<br>
**Sərkərdə qoçaq olsa,**<br>
**Heç verməz ordu bada.**

Azərbaycan Əsgəri nə qədər şücaətlidirsə, Siz də bir o qədər məğrur

Sərkərdəsiniz. Bu qalibiyyətin əsas memarı Ali Baş Komandan kimi Sizsiniz. Bizlər Sizə ürək sözlərimizi çatdırmaq üçün zəngin dilimizin sözləri inanın ki, azlıq edir. Ölkəmizin və dünyanın əziyyət çəkdiyi separatizm və terrorizmin ölkəmizdə sonunu gətirə bilən yeganə Dünya Liderisiniz. Ona görə də biz hesab edirik ki, dünyanın ən ali mükafatı belə Sizin xidmətləriniz qarşısında çox kiçik qalır. Dünyanın ən ali

mükafatı Sizə verilməlidir ki, o ali mükafat daha şərəfli görünsün. Biz

Mollabayramlı camaatı olaraq hesab edirik ki, Nobel Sülh Mükafatı Sizə verilərsə həmin mükafat daha nüfuzlu ola bilər.

Sizə Mollabayramlı camaatı olaraq Türk Dünyası tarixinin növbəti qızıl

səhifəsini yazdığınız üçün çox dərin minnətdarlığımızı bildirərək Sizi və Xalqımızı bu möhtəşəm qələbə münasibəti ilə təbrik edirik, Allahdan Sizə uzun ömür, möhkəm cansağlığı və daim müzəffər olmağı arzu edirik!".

# Mina terrorunun qurbanları artır

## Daxili İşlər Nazirliyi və ANAMA vətəndaşları təhlükəli ərazilərə daxil olmamağa çağırıb

*Nardar BAYRAMLI*

Ermənistanın mina terroru davam edir. Oktyabrın 13-də Füzuli rayonunun Aşağı Veysəlli kəndi ərazisində minalardan təmizlənməyən ərazidə mina hadisəsi baş verib. Bu barədə Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) mətbuat xidmətləri birgə məlumat yayıb. Bildirilib ki, ilkin məlumata əsasən tank əleyhinə mina partlayışı nəticəsində "QAZel" markalı maşının sürücüsü 1987-ci il təvəllüdlü Əbilov Famil İlyas oğlu həlak olub. "KamAZ" tipli yük maşınının sürücüsü 2000-ci il təvəllüdlü Bayramov Namaz Nəbadi oğlu isə xəsarət alıb.

Daxili İşlər Nazirliyi (DİN) və ANAMA bir daha vətəndaşları məsuliyyətli olmağa və təhlükəli ərazilərə daxil olmamağa çağırıb. Çağırışda təhlükəli ərazilərdə hər bir addımın ölümcül fəsadlar törədə biləcəyi qeyd edilir. Aşağıdakı tövsiyələrə riayət edərək mina təhlükəsi ilə mübarizə fəaliyyətinə dəstəyə çağırış edilib: Təhlükəli və bələd



olmadığınız ərazilərə daxil olmayın; Yalnız gündəlik işlək yollardan istifadə edin; Yolda və ya cığırda olan maneələrdən ehtiyatlı olun; Naməlum əşyalara toxunmayın; Özünüzü, ailənizi, yaxınlarınızı düşünün!

Ümumiyyətlə, Azərbaycan dünyada mina ilə çirkləndirilən əsas ölkələrdən biridir. Ermənistan 30 illik işğal dövründə çoxlu sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Azərbaycan ərazilərində kütləvi şəkildə minalar və digər partlayıcı qurğuların yerləşdirilməsi bərpa və yenidənqurma işlərinin əngəlsiz şəkildə irəliləməsi üçün ciddi maneə olaraq qalır. Bu, otuz illik məcburi köçkünlükdən sonra öz evlərinə qayıdan şəxslər üçün təhlükə yaradır.

Ermənistanın bütün minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtina etməsi və bütün hərbi əməliyyatların dayandırıldığının elan edilməsindən sonra da minaların, mina tələlərinin və digər partlayıcı maddələrin davamlı yerləşdirilməsi vəziyyəti daha da ağırlaşdırıb və insan tələfatının sayını artırıb. Erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi İrəvan hələ də dəqiq mina xəritələrini vermək istəmir.

Xatırladaq ki, sentyabrın 19-da erməni diversiya qrupunun Füzuli-Əhmədbəyli-Şuşa yolunda yerləşdirdiyi minaların partlaması nəticəsində 2 mülki yol inşaatçısı faciəvi şəkildə həlak oldu. 4 polis əməkdaşı isə həmin hadisəsinin baş verdiyi əraziyə baxış keçirməyə cəhd edərkən eyni bölgəyə yaxın yerdə quraşdırılmış növbəti minanın partlamasının qurbanı oldular. Eyni zamanda, bu partlayışlar Azərbaycanın daha 6 polisinin ağır yaralanmasına səbəb oldu.

Qeyd edilməlidir ki, 2020-ci il üçtərəfli Bəyanatından sonra Azərbaycanda 2022-ci ilin avqust ayından indiyədək 2021-ci ildə Ermənistanda istehsal edilmiş, ümumilikdə 2,728 mina aşkarlanaraq zərərsizləşdirilib. Belə ki, Azərbaycan-Ermənistan sərhədi boyunca Kəlbəcər və Laçın rayonlarında 1119 mina, Qarabağ iqtisadi rayonunda isə 1609 mina aşkarlanaraq zərərsizləşdirilib. Ümumilikdə, 2020-ci ilin noyabr ayında üçtərəfli Bəyanatın imzalanmasından bugünədək 333 insan minaların qurbanı olub.

Azərbaycanda davam edən mina problemini və dövlət qurumlarının bu problemi həll etmək istiqamətində üzləşdikləri çətinlikləri nəzərə alaraq, minatəmizləmə sahəsində Azərbaycanın potensialının gücləndirilməsi üçün beynəlxalq dəstəyin artırılmasına ciddi ehtiyac var. Bu cür dəstək minatəmizləmə səylərinə kömək etməklə yanaşı, o cümlədən minalarla mübarizə istiqamətində qlobal kampaniyaya töhfə verəcək və regionda sülh və əməkdaşlığa sadiqliyi nümayiş etdirəcək.

Digər tərəfdən, Dövlət Təhlükəsizliyi Xidmətinin sentyabrın 19-da Əhmədbəyli-Füzuli-Şuşa yolunun 58-ci kilometrliyində və Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda minalar yerləşdirərək iki mülki şəxsin və dörd polis nəfərinin həlak olması ilə nəticələnən terror əməllərini törətməkdə şübhəli bilinən şəxslərin saxlanılması haqda açıqladığı məlumat bir daha təsdiqləyir ki, cinayətkarlar cəzasız qalmır. Yəni, Azərbaycan bütün müstəvilərdə ədalətin bərpası uğrunda mübarizə aparır və buna nail olur.

# Obyektiv qərar verilməlidir!

## Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın saxta iddialarını rədd etməlidir

*NARDAR*

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin etməklə regionda yeni reallıqlar yaradıb. Artıq bir çox ölkələr və beynəlxalq təşkilatlar dövlətimizin yaratdığı yeni reallıqları qəbul edir, Azərbaycanın Cənubi Qafqazda sülh və əməkdaşlıq təşəbbüslərini dəstəkləyirlər. Lakin Azərbaycanın öz ərazi bütövlüyünü, suverenliyini təmin etməsi, artan gücü Ermənistanı və onun havadarlarını ciddi şəkildə narahat edir. Xüsusilə, ötən ay 24 saatlıq antiterror tədbirləri nəticəsində Qarabağda qanunsuz erməni silahlı birləşmələrinin təslim olması və qanunsuz rejimin özünü buraxması Ermənistana və havadarlarına rahatlıq vermir. Məhz bu səbəbdən də vaxtaşırı olaraq onlar tərəfindən ölkəmiz haqqında obyektivlikdən kənar məlumatlar dövriyyəyə buraxılır.

Nə qədər paradoksal olsa da, Ermənistan Azərbaycanın antiterror tədbirləri ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinə şikayət edib. Oktyabrın 12-də isə Beynəlxalq Ədalət Məhkəməsində İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi (Ermənistan Azərbaycana qarşı) haqqında ictimai dinləmələrin keçirilib.

Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov Beynəlxalq Ədalət Məhkəməsində Ermənistanın Azərbaycana qarşı müraciəti üzrə dinləmələrdə çıxış edərkən bildirib ki, sentyabrın 19-20-də keçirilən lokal antiterror tədbirləri Qarabağda qanunsuz fəaliyyət göstərən erməni hərbi birləşmələri tərəfindən törədilən ciddi təhlükəsizlik təhdidləri səbəbilə baş verib. Nazir müavini qeyd edib ki, 10 noyabr 2020-ci ildəki üçtərəfli bəyanatda Ermənistanın Rusiya sülhməramlılarının yerləşməsinə paralel olaraq Qarabağdan öz qüvvələrini çıxarması tələbi açıq şəkildə göstərilib. Lakin Ermənistan təxminən üç il Azərbaycanın suveren ərazisindəki qanunsuz hərbi birləşmələrə dəstəyini davam etdirib. Bu ilin iyulunda Ermənistanın Təhlükəsizlik Şurasının katibi Ermənistan qoşunlarının hələ də Qarabağda fəaliyyət göstərdiyini etiraf edib və onların bir neçə ay sonra geri çəkiləcəyini bəyan edib ki, bu, faktiki olaraq heç vaxt baş verməyib.

Elnur Məmmədov lokal antiterror tədbirlərinə qədərki bir neçə həftə ərzində Ermənistan qüvvələrinin Qarabağdakı fəaliyyətinin intensivləşdiyini, bu qüvvələrin döyüş hazırlığı vəziyyətinə gətirildiyini, yeni döyüş istehkamları, səngərlər hazırladığını və Azərbaycanın hərbi mövqelərinə yaxın minalar yerləşdirdiyini qeyd edib.

Onu da qeyd edək ki, Ermənistanın müraciəti əsasında dinləmələrin keçirildiyi saatlarda Azərbaycan icması Niderlandın Haaqa şəhərində Beynəlxalq Ədalət Məhkəməsinin önündə "Biz sülh istəyirik!" adlı dinc etiraz aksiyası təşkil edib. Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının təşkilatçılığı ilə baş tutan aksiya Ermənistanın cəfəng iddialarına və anti-Azərbaycan kampaniyasına etiraz məqsədilə keçirilib. Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayan aksiyada çıxış edənlər Ermənistanın 30 ilə yaxın müddət ərzində Azərbaycana və xalqımıza qarşı törətdiyi qəsbkarlıq, təcavüz, etnik təmizləmə, soyqırımları siyasətini, vandallıq aktlarını, mina terrorunu xatırladıblar. Etirazçılar Beynəlxalq Ədalət Məhkəməsindən Ermənistanın saxta iddialarını rədd etməyi, multikultural və sülhsevər



Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşmağı tələb ediblər.

Aksiya zamanı "Qarabağ Azərbaycandır!", "Azərbaycanın ərazi bütövlüyünə hörmət edin!", "Erməni separatçılığına son qoyulsun!", "Anti-Azərbaycan kampaniyasına son verin!", "Azərbaycan sülh istəyir, Ermənistan müharibə istəyir!", "Xocalını unutma!", "Gəncə terroru Ermənistan terrorunun nümayişidir!", "Ruben Vardanyan terrorizmin maliyyəçisidir!", "Dünya Gəncə terroruna susur!" və sair şüarlar səsləndirilib.

Ümumiyyətlə, rəsmi Bakı tərəfindən dəfələrlə bəyan olunduğu kimi Qarabağda keçirilən antiterror tədbirləri beynəlxalq hüquq normaları çərçivəsindədir. Azərbaycan digər ölkələr kimi öz ərazisində qanunsuz hərbi birləşmələrin, separtizmin qarşısını almaq hüququna sahibdir. Ona görə də, Beynəlxalq Ədalət Məhkəməsi obyektiv qərar qəbul etməlidir.

# 20 il çiyin-çiyinə!

Son 20 il müstəqil Azərbaycanın həyatında o dərəcədə əlamətdar olub ki, bu dövrü bütöv bir epoxaya bərabər saymaq mümkündür. Ölkəmiz həyatın bütün sahələrində böyük uğurlar qazanıb, daim zirvələrdən-zirvələrə yüksəlib. Bu uğurların hərəkətverici qüvvəsi isə Prezident İlham Əliyevin zamanı qabaqlayan ideyaları, strateji düşüncələri və aldığı taleyüklü qərarlar olub. Azərbaycanın uğurlu inkişaf modelini fərqləndirən başqa bir mühüm məqama da diqqət çəkmək istərdik. Biz son 20 ildə ən taleyüklü və həssas məqamlarda həmişə birinci xanım Mehriban Əliyevanı dövlət başçımızın yanında görmüşük. Azərbaycanlıların mental düşüncələrində ailə dəyərləri öndə gəlir və bu dəyərlərə böyük hörmət bəslənilir. Deyə bilərik ki, son 20 ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ölkənin ictimai həyatında da daim bir yerdə olublar və çiyin-çiyinə çalışıblar. Azərbaycanın mütərəqqi idarəçiliyi isə bundan güclü impuls alıb.

Ənənəvi olaraq belə bir qənaət formalaşıb ki, birinci xanımlar bütün qayğılardan uzaqdırlar və onlarla sıravi insanlar arasında keçilməz "Çin sədləri" var. Birinci xanım Mehriban Əliyevanın timsalında isə biz ənənəvi təsəvvürlərdən uzaq olan tamam fərqli bir mənzərənin şahidi oluruq. O, heç bir halda özünü cəmiyyətdən ayırmır, daim ziyalılarla, sıravi vətəndaşlarla, gənclərlə, könüllülərlə, uşaqlarla ünsiyyətə can atır. Aydın şəkildə hiss olunur ki, o məhz belə məqamlarda özünü xoşbəxt sanır. Mehriban xanım Əliyeva Azərbaycanda birinci xanım institutunun orijinal və çox funksional bir modelini formalaşdırmağa nail olub. Harada ki, çətinliklər var, nə zaman ki, milli mədəniyyətimizə qayğı tələb olunur, kiminsə haqqı tapdalanır, Azərbaycanın haqq səsini dünyada ucaltmaq lazımdır... məhz belə yerlərdə və həssas məqamlarda biz birinci xanım Mehriban Əliyevanı görürük. Bəzən onun irəli sürdüyü təşəbbüslərin icrası çox çətin görünür. Ancaq yox, artıq neçə illərdir ki, təsdiqini tapıb: Mehriban xanım Əliyevanın bəyan etdiyi layihələrin miqyasından asılı olmayaraq, hamısının icrası yüksək səviyyədə təmin olunub. Bunun arxasında isə, ilk növbədə, onun canıyananlığı, fədakarlığı, məsuliyyəti və yüksək təşkilatçılıq, insanları milli məqsədlər naminə səfərbər etmək məharəti dayanır.

## Bir yerdə xalqa xidmət nümunəsi

Son 20 ilin təcrübəsi Prezident İlham Əliyevin Öz fəaliyyətini daim xalqla bir yerdə olmaq və xalqa ləyaqətlə xidmət etmək prinsipi əsasında qurduğunu əyani şəkildə təsdiqləyir. Ölkəmizdə aparılan praqmatik siyasət ilk növbədə xəlqi mahiyyəti ilə fərqlənir. Dövlət başçısı mütəmadi qaydada ictimaiyyətin nümayəndələri ilə görüşür, tez-tez bölgələrə səfərlər edir. Bu görüşlər və səfərlər isə izsiz ötüşmür. Dövlət başçısı insanları narahat edən məsələlərlə yerindəcə tanış olur, həmçinin əvvəllər verilən tapşırıqların müvafiq qurumlar tərəfindən necə icra edildiyi ilə maraqlanır. Beləliklə, bir tərəfdən nəzarət möhkəmlənir, məmurların məsuliyyəti artır, digər tərəfdən isə dövlət siyasətinin prioritetləri müəyyənləşdirilərkən yerlərdə insanların qaldırdıqları məsələlər mütləq nəzərə alınır. Prezident İlham Əliyev həmişə qəti mövqe və siyasi iradə ortaya qoyaraq komandasının diqqətini, dövlətin resurslarını ən ümdə məsələlərə yönəldir. Bu məsələlər sırasında sosial sfera, vətəndaşlara qayğı prioritet təşkil edir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşının maraqları dayanır. Dövlətimizin başçısı öz vəzifəsini belə müəyyənləşdirib: " Mənim işim sizə xidmət etməkdir. Mən öz vəzifəmi bunda görürəm. Prezident kimi həmişə çalışmışam ki, Azərbaycan xalqına ləyaqətlə xidmət edim. Vətəndaşları narahat edən problemlərin həlli üçün bütün lazımi addımlar atılacaq".

Azərbaycanda həm də insanlarda yüksək vətəndaş məmnunluğu yaradan gözəl ənənə formalaşıb: Prezident İlham Əliyev regionlara səfərlərini, ictimaiyyət nümayəndələri ilə görüşlərini bir qayda olaraq Mehriban xanım Əliyeva ilə birlikdə reallaşdırır. Dövlət başçısının müəyyənləşdirdiyi strateji kursa uyğun olaraq dövlət həmişə öz vətəndaşının yanında olur, onun üzləşdiyi problemlərin aradan qaldırılmasına lazımi dəstək göstərir. Bu da, təbii ki, vətəndaşlarda güclü Azərbaycan dövlətinə böyük inam yaradır. Xatırlayırıq, bir neçə il bundan əvvəl respublikamızın Ağsu, Şamaxı, İsmayıllı rayonlarında zəlzələlər baş verdi. İnsanlar təbii fəlakətdən ziyan çəkmişdilər, onlarla ailə evsiz-eşiksiz qalmışdı. Həmin çətin günlərdə Prezident İlham Əliyevin Mehriban xanım Əliyeva ilə birlikdə təbii fəlakət baş verən bölgələrə gəlmələri insanlara böyük mənəvi dayaq oldu. İnsanlar sarsılmadılar və çətinliklərin müvəqqəti olduğuna inandılar. Təsadüfi deyil ki, bəhs olunan səfərləri çərçivəsində keçirilən görüşlərdə insanlar çətin günlərdə onlara dayaq duran Azərbaycan dövlətinə, şəxsən Prezident İlham Əliyevə və Mehriban xanım Əliyevaya özlərinin dərin minnətdarlıqlarını ifadə ediblər. Görüşlərdə müxtəlif sosial təbəqələri əhatə edən insanların "Biz Sizi gözləyirdik" demələri olduqca təsirli və ibrətamiz məqamlar idi. Bu, onu göstərir ki, Azərbaycan iqtidarı məqsədyönlü fəaliyyət sayəsində cəmiyyətin böyük etimadını qazanıb. Çətinə düşən insanlar heç kimdən yox, məhz öz dövlətindən və inandığı, ümid bəslədiyi Prezidentindən, birinci xanımdan umur, kömək gözləyir. Dünyaya nümunəvi inkişaf modeli təqdim edən Azərbaycanın inkişafının əsas hərəkətverici qüvvəsi də məhz bu amildir - iqtidar-xalq həmrəyliyidir. Heç bir güc, kənar təsir bu sarsılmaz vəhdəti pozmaq və yaxud ona hansısa bir formada xələl gətirmək iqtidarında deyil.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ailə bayramlarını ənənəvi olaraq qaçqın və məcburi köçkünlərlə qeyd etmələri də Azərbaycan cəmiyyətində minnətdarlıqla xatırlanır. Yurd yerlərini, illər bounca qurduğu ev-eşiyini itirmək hər kəs üçün çox ağırdır. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, O, ad günlərini, yubileylərini təntənəli şəkildə qeyd etməkdən uzaqdır. Bu, Azərbaycanın dövlət başçısına xas olan sadəliyin və təvəzökarlığın göstəricisidir. Ancaq Prezidentin onun üçün əlamətdar günləri xanımı ilə birlikdə qaçqınlar və məcburi köçkünlərlə bir yerdə qeyd etməsi xüsusi məna daşıyır.

Mehriban xanım Əliyevanın xeyirxahlığı Azərbaycanın dövlətinin humanizm prinsipinə əsaslanan siyasətini daha da zənginləşdirir. Azərbaycan cəmiyyəti onun timsalında zərif və xeyirxah Azərbaycan qadınlarının ümumiləşmiş obrazını görür. Mehriban xanım Əliyeva bayramlarda bir qayda olaraq xüsusi qruplardan olan uşaqların əhatəsində olur, onlar üçün klounların, sevilən müğənnilərin iştirakı ilə şənliklər təşkil edir, internat məktəblərinə baş çəkir, səhiyyə ocaqlarına gələrək daun sindromlu, talassemiyalı xəstələri yoluxur. Onun ana nəvazişinə həsrət qalan uşaqlar üçün tort bişirib hədiyyə etdiyi də minnədarlıq hissi ilə xatırlanır. İndiyədək Heydər Əliyev Fondunun icra etdiyi təkcə "Uşaq evləri və internat məktəblərinə dəstək" layihəsi çərçivəsində 40-dan çox internat və uşaq evi yenidən qurulub. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir neçə "Məzun evi" tikilərək uşaq evləri və internat məktəblərinin məzunu olan gənclərin istifadəsinə verilib. Bütövlükdə, bu binalarda 365 gənc hər cür rahatlığı olan mənzillərlə təmin olunub.



Ölkəmizdə Birinci və İkinci Qarabağ müharibələrinin qazilərinə, şəhid ailələrinə dövlət tərəfindən lazımi köməklik göstərilir. İndiyədək 10

## Şəhid ailələrinə, qazilərə həssas yanaşma

mindən artıq şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Müharibə əlillərinə 7 mindən artıq minik avtomobili verilib. Respublikamızda şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün yaradılmış "YAŞAT" Fondu tərəfindən indiyədək 15 minə yaxın şəxs öhdəliyə götürülüb, 78 milyondan artıq vəsait toplanıb və müvafiq istiqamətlər üzrə həmin vəsaitin xərclənməsi davam etdirilir. Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunə sayıla bilər. Eyni zamanda, yaralanmış müharibə iştirakçılarının reabilitasiyası və onların sosial məsələlərinin həlli istiqamətində görülmüş işlər sübut edir ki, dövlət hər zaman öz əsgərinin yanındadır.

Bəhs olunan həssas qruplardan olan insanlara, həmçinin qaçqın və məcburi köçkün soydaşlarımıza qayğı, həssas yanaşma Mehriban xanım Əliyevanın da fəaliyyətindən qırmızı xətt kimi keçir. Mehriban xanım Əliyeva Birinci vitse-prezident vəzifəsində ona göstərilən etimadı yüksək səviyyədə doğruldur. Həssas təbəqələrdən olan insanlara qayğı yeni vəzifədə də Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas qayəsini təşkil edir. Heç təsadüfi deyildir ki, Mehriban xanım Əliyeva Birinci vitse-prezident vəzifəsində ilk müşavirəsini cəmiyyətin həssas təbəqəsinin problemlərinə - Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edib.

Birinci vitse-prezident Mehriban Əliyeva hər iki Qarabağ müharibəsi qazilərinin yüksək səviyyəli protezlərlə təmin olunması təşəbbüsü ilə çıxış edib. Hazırda müvafiq proqram uğurla həyata keçirilməkdədir.

## Dövlətin və Heydər Əliyev Fondunun gənclərə, təhsilə böyük qayğısı

Azərbaycan Prezidenti İlham Əliyev respublikamızda digər sahələrdə olduğu kimi, Ulu Öndərin əsasını qoyduğu gənclər siyasətində də ardıcıllığı yüksək səviyyədə təmin edir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2007-ci il respublikamızda "Gənclər ili" elan edilib. Dövlətimizin başçısı 30 dekabr 2019 tarixində "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında" Sərəncam imzalayıb ki, bu da ölkəmizdə, eyni zamanda, gənclərə göstərilən diqqət və qayğının daha bir bariz nümunəsidir. Məlumdur ki, ötən 20



## Bu dəstək mübariz Lider, güclü Prezident, müzəffər Ali Baş Komandan portretini uğurla tamamlayır

il ərzində Azərbaycanda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında qara qızılı insan kapitalına çevirmək prinsipi əsasında islahatlar aparılıb. O cümlədən ötən dövrdə gənclər siyasəti ilə bağlı müxtəlif illəri əhatə edən bir neçə Dövlət Proqramı uğurla icra edilib. Bunlar aşağıdakılardır:

- "Azərbaycan gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər);
- "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)";
- "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı;
- "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı;
- "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası";
-"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı";
- "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı".

Yeni Dövlət Proqramının icrası müddətində hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcək.

Prezident İlham Əliyev ölkədə gənclərin təşkilatlanmasına və onların ictimai fəaliyyətinin stimullaşdırılmasına xidmət edən məqsədyönlü siyasət həyata keçirir. Dövlət başçısının təşəbbüsü ilə 2011-ci il 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradılıb. 2018-ci ildə Fond yenidən təşkil edilərək Azərbaycan Respublikasının Gənclər Fondu adlandırılıb. Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm qərarlardan biri də 2013-cü il 2 iyul tarixində ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi olunub.

Azərbaycan gənclərinin hərtərəfli formalaşmasına Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan və birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da misilsiz töhfələr verir. Respublikamızda könüllülər hərəkatının formalaşmasında Mehriban xanım Əliyevanın şəxsi nümunəsi xüsusi rol oynayıb. Birinci xanımın vətənpərvərliyi, dünyanın hər yerində, mötəbər beynəlxalq təşkilatlarda milli mədəniyyətimizi yüksək səviyyədə təbliğ etməsi gənclər üçün bir örnəkdir. Biz Heydər Əliyev Fondunun fəaliyyətinin timsalında dövlət-cəmiyyət tərəfdaşlığının gözəl nümunəsini görürük. Bir sıra hallarda Fond dövlətin apardığı siyasətə əlavə impuls verir, digər hallarda isə qurumdan, şəxsən Mehriban xanım Əliyevadan gələn təşəbbüslər və başlanan işlər dövlət tərəfindən dəstəklənərək irəli aparılır. Məlumdur ki, Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin icrasına start verib. Sonradan Prezident İlham Əliyevin də məmnunluqla vurğuladığı kimi, bu, dövlət proqramına çevrildi. Belə faydalı əməkdaşlıqdan qazanan isə təhsilimizdir, böyüməkdə olan nəsildir. İndiyədək respublikamızda təxminən 3500 məktəb tikilərək istifadəyə verilib ki, onların da bir çoxunun inşası məhz Heydər Əliyev Fondunun xətti ilə təmin edilib.



## Onlar Qarabağı qarış-qarış gəzirlər

Azərbaycan xalqı düz 30 il torpaq nisgili ilə yaşayıb. Düşmən tapdağında qalan ərazilərimiz daim bizim düşüncələrimizi ilğım kimi çəkərək o yerlərə aparırdı. Əziz Şuşanı, Kəlbəcəri, Laçını, Zəngilanı, Füzulini, Ağdamı, Qubadlını və digər yurd yerlərimizi heç vaxt unutmurduq və o yerlərə qayıdacağımıza inanırdıq. Bu xoşbəxtliyi xalqımıza Müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirən, 44 günlük müharibədə daim irəli gedən Ordumuz yaşatdı. Düşmən cəmi 44 gün ərzində diz çökdü və kapitulyasiyaya məruz qaldı. Müharibənin başa çatmasından sonra isə Azərbaycanın dövləti dərhal işğaldan azad edilmiş ərazilərdə quruculuq və bərpa işlərinə start verib. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, biz işğaldan azad edilən ərazilərimizi cənnətə çevirəcəyik. Artıq göz önündə yeni bir Qarabağ formalaşır

Müharibədən sonra işğaldan azad olunmuş ərazilərə, o cümlədən də Şuşaya ilk ayaq basanlar isə məhz Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oldular. Riskləri nəzərə aldıqda bu, bəlkə də, gözlənilməz idi. Ancaq Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın yurd yerlərinə bağlılığını bütün dünyaya nümayiş etdirdilər. Deyə bilərik ki, onlar son üç ilə yaxın dövr ərzində Qarabağı qarış-qarış gəziblər. Prezident İlham Əliyev bir neçə dəfə bildirib ki, adam Şuşaya gələndə buradan geri qayıtmaq istəmir. Bu, torpağa, yurd yerlərimizə bağlılığın əyani ifadəsidir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bəhs olunan ərazilərdə çoxlu sayda açılış və təməlqoyma mərasimlərinə qatılıblar.

Eyni zamanda, ərazilərin bərpasında Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu yaxından iştirak edir. Mehriban xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə Şuşada "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçirilir. Həmçinin 2021-ci il avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunub. Heydər Əliyev Fondu işğaldan azad olunmuş ərazilərdə erməni vandalizminə məruz qalan dini abidələrin bərpası layihəsinin icrasına start verib. Xatırladaq ki, işğal illərində buradakı 67 dini abidənin 65-i dağıdılıb. İndi Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həmin abidələrə yeni həyat verir. Bu, milli təəssübkeşliyin, mənəvi dəyərlərimizə böyük hörmətin bariz nümunəsidir.

*Mübariz ABDULLAYEV*

# Məmməd Araz - 90

## Poeziyamızın xan çinarı

**“Azərbaycan” deyiləndə ayağa dur ki,**
**Ana yurdun ürəyinə toxuna bilər.**

Yaradıcı insanların ortaq xüsusisyyətlərindən biri də onların əbədi və əzəli bir ilham mənbəyinin olmasıdır. Xalq şairi Məmməd Arazın əsas ilham mənbəyi tarixi minilliklərə söykənən, tarix səhnəsində hər zaman öz söz və mövqeyinə malik olan Vətənidir.

“Vətən” sözü şair üçün mücərrəd bir məfhum deyil. Məmməd Araz “Vətən” dedikdə gözlərimiz önündə yurdumuzun gözəl düzləri, bol sulu çayları, məğrur dağları, yalçın qayaları canlanır. Məmməd Araz yalnız Vətənin gözəlliyini təsvir etməklə kifayətlənmir. Şairin Vətənə məhəbbəti dərin duyğularla ifadə olunur, o, Vətənin yovşanını 4 yad elin gül-çiçəyindən daha əziz bilir və Vətənin “sağ ol”undan başqa özgə mükafat istəmir.

Bu dəfə yazımızda Məmməd Arazdan söz açmağımız təsadüfi deyil, çünki bu gün - 14 oktyabr müstəqil Azərbaycanın ilk xalq şairi Məmməd Arazın doğum günüdür.

Məmməd İnfil oğlu İbrahimov 1933-cü ilin bir payız günündə, oktyabr ayının 14-də Şahbuz rayonunun Nurs kəndində anadan olub. Ümumilikdə, Məmməd Araz aləmi sirli-sehirli, gəlimli-gedimli dünyada əbədiyyət qazanan bir aləmdir. O, sağlığında canlı klassikə çevrilən, hamının qəlbində özünə heykəl qoyan və həyatda Daşlaşan, Qayalaşan, Heykəlləşən bir sənətkar olub. Məmməd Araz yaradıcılığı rəngarəng, qol-budaqlıdır.



Onun yaradıcılığında gənclərin əxlaqi tərbiyəsi, torpağa qayğı və ehtiram, Azərbaycan təbiətinin qorunması kimi bir sıra problemlər daha geniş əks olunub. Şairin düşünən və düşündürən yaradıcılığını qidalandıran ən ali mənbə Vətənə, xalqa, doğma torpağa məhəbbət hissidir. Onun hər şeirində, hər sətrində, hər sözündə belə, Vətənə məhəbbət tərənnüm olunur.

**Müstəqil Azərbaycanın ilk xalq şairi**

Bir sözlə, Məmməd Arazın əsas şeirləri milli və mədəni məsələlərlə, sevgi, Vətən, insan haqqı, azadlıq və xalqın ürəyi ilə bağlı məqamları əks etdirir. Onun əsərlərində xalq sevgisi, milli hisslər və insanlığa müraciət mövzuları geniş şöhrət qazanıb. Şairin əsərləri Azərbaycan xalqı üçün böyük mənada motivasiya və milli identitetin inkişafı üçün bir qaynaq olub. Məmməd Arazın əsərləri həm Azərbaycan, həm də beynəlxalq miqyasda çox sevilir və qiymət verilir. O, Azərbaycanın ədəbiyyat tarixinin ən böyük şairlərindən biri kimi anılır və əsərləri hələ də xalq arasında sevgi ilə oxunur və tədqiq edilir.

Məmməd Araz poeziyasına, onun yaradıcılığına biganə qalmaq, bu haqda fikir söyləməmək mümkün deyil. Ədəbiyyatımızın, milli-mənəvi dəyərlərimizin böyük və əvəzsiz hamisi ümummilli lider Heydər Əliyev də Məmməd Araz poeziyasına, onun fəlsəfəsinə və bəşəri dəyərinə çox yüksək qiymət verərək Məmməd Araza xitabən deyib: “Doğrudur, bəzən bu yaradıcılığınıza görə siz sıxılmısınız da, sizi incidiblər də, sizə kəm baxıblar da, sizi açıq və ya gizli tənqid də eləyiblər. Ancaq mənə belə gəlir ki, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın qəhrəmanlığı - mən bu sözü tam cəsarətlə deyirəm - elə ondan ibarətdir ki, onları heç bir şey qorxutmayıbdır. Onların qarşısını heç bir şey kəsməyibdir. Onlar öz işlərini görüblər. Xırda-xırda, çox incə, çox zərif görüblər və məhz bu incəliyə, zərifliyə, nazikliyə görə də sizin bu fikirləriniz bizim vətənpərvər insanlarımızın, xalqımızın ürəyinə yol tapıbdır”.

*Günel ABBAS*

# “Sözümüz imzamızdır: 20 il”

## Nizami rayonunda fləşmob keçirilib

Nizami Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının birgə təşkilatçılığı ilə “Sözümüz imzamızdır: 20 il” devizli fləşmob keçirilib.

Fləşmobda 1000 nəfərdən artıq gənc Prezident İlham Əliyevin “Sözümüz imzamızdır” ifadəsi, dövlət başçısının imzası və “20” rəqəmi formasında düzülüb.

Fləşmobun əsas ideyasını Prezident İlham Əliyevin 20 il ərzində xalqa layiqincə xidmət etməsi, Müzəffər Ali Baş Komandan kimi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin edərək əsrin qalib ölkəsinə çevirməsi təşkil edib.

Fləşmob iştirakçıları 20 il öncə - 2003-cü ilin 15 oktyabr tarixində xalqın düzgün qərar verərək ölkədə Heydər Əliyev siyasətinə alternativin olmadığını bir daha təsdiqləməsini canlandırıblar. Azərbaycan xalqının cənab İlham Əliyevə etimad göstərməklə əmin-amanlığın, quruculuğun və inkişafın tərəfində olduğunu nümayiş etdirməsi diqqətə çatdırılıb.

Fləşmob rayon sakinlərində də böyük maraq oyadıb və xoş təəssürat yaradıb.





# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il oktyabr ayının 13-də YAP Göyçay rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Göyçay rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Sonda xatirə fotosu çəkdirilib.



# Möhtəşəm uğurlar Heydər Əliyev siyasətinin nəticəsidir

## Masallı rayonunda “Heydər Əliyev İli” çərçivəsində tədbir keçirilib

“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Masallı rayon təşkilatı oktyabr ayının 13-də Masallı şəhər Heydər Əliyev Mərkəzində tədbir keçirib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.

Masallı rayon Şəhidlər kompleksi də ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb.

Sonra “Ulu Öndər Heydər Əliyev və Azərbaycan mədəniyyəti 100” adlı sərgi ilə tanışlıq olub.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib ki, ümummilli lider Heydər Əliyev hər zaman Azərbaycanın tərəqqisi uğrunda çalışmış, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş dahi şəxsiyyətdir. O qeyd edib ki, məhz Ulu Öndərin gərgin əməyi və qətiyyətli siyasəti sayəsində yeni, müasir Azərbaycan dövləti qurulub, ölkəmiz dünya məkanında öz layiqli yerini tutub. Seyfəddin Əliyev Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 illik dövrün Azərbaycan tarixinin ən qüdrətli, müstəqilliyimizin ən güclü, dövlətçiliyimizin ən möhtəşəm quruculuq mərhələsi olduğunu vurğulayıb.



Masallı rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov Ulu Öndərin öz mənalı və zəngin ömrünü bütövlükdə millətinə, xalqına, Vətəninə və dövlətinə həsr etdiyini, müqəddəs amallar uğrunda müstəsna fəaliyyət göstərdiyini diqqətə çatdırıb. A.Əhmədov vurğulayıb ki, Prezident İlham Əliyev 20 illik prezidentlik dövründə sadə vətəndaşların, şəhid ailələrinin, müharibə əlillərinin yanında olub, onlara mütəmadi qayğı və diqqət göstərib. Məhz bunun nəticəsidir ki, ümumxalq məhəbbətini qazanan cənab İlham Əliyevin siyasəti xalq tərəfindən birmənalı şəkildə dəstəklənir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Anar İsgəndərov ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən, müstəqil Azərbaycan dövlətinin inkişafı naminə müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, Yeni Azərbaycan Partiyasının qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan gündən-günə inkişaf edir, yeni nailiyyətlərə imza atır.

Milli Məclisin deputatı Məşhur Məmmədov çıxışında deyib ki, ulu öndər Heydər Əliyev xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Xalqımızın xilaskarı, müdrik dövlət xadimi Heydər Əliyevin əbədiyaşar ideyaları Azərbaycan xalqının dəyərli sərvətidir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın tərəqqisini təmin edib, torpaqlarımız işğaldan azad olunub və ölkəmiz möhtəşəm uğurlar qazanmaqdadır.

Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü Musa Qasımlı çıxışında vurğulayıb ki, bu gün ulu öndər Heydər Əliyevin ideyaları əsasında dinamik inkişaf edən, qüdrəti və beynəlxalq nüfuzu getdikcə artan Azərbaycan yeni zirvələr fəth edir. Qeyd edib ki, qazanılan bütün nailiyyətlərin əsasında ulu öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dayanır.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə Fəxri Fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

# Ümummilli Lider Azərbaycan dövlətinin xilaskarıdır

## Qaradağ rayonunda “Heydər Əliyev İli” çərçivəsində tədbir keçirilib

“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Qaradağ rayon təşkilatı oktyabrın 12-də Lökbatan qəsəbəsində yerləşən Heydər Əliyev Mərkəzində tədbir keçirib.



Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev qəlbi daim Azərbaycan ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb. O bildirib ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Bu gün Azərbaycan Respublikasının möhkəm sosial-iqtisadi və mənəvi dayaqlar üzərində durması, xalqımızın demokratik-hüquqi dövlətdə yaşamaq arzularının reallaşması çağdaş tariximizin unudulmaz dühası - ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov qeyd edib ki, Azərbaycan tarixinin bütöv bir dövrü görkəmli dövlət xadimi Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edib.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektor əvəzi Vazeh Əsgərov 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan olunması ilə əlaqədar Yeni Azərbaycan Partiyasının silsilə tədbirlər keçirdiyini deyib. Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətlərinin olduğunu deyən V.Əsgərov dahi şəxsiyyətin ideyalarının gənc nəslə aşılanmasının vacib olduğunu söyləyib.

Elm və Təhsil Nazirliyinin Neft-Kimya Prosesləri İnstitutunun Baş direktoru, akademik Vaqif Abbasov Ulu Öndərin 1969-cu ildə respublika rəhbərliyinə gəldikdən sonra Azərbaycanın neft strategiyasında əsaslı dönüş yarandığını söyləyib. 1994-cü ildə “Əsrin müqaviləsi” imzalanarkən Azərbaycanın investisiya qoymağa imkanı olmadığını xatırladan V.Abbasov məhz Ulu Öndərin dünya miqyasında nüfuzunun bu müqavilənin həyata keçirilməsində mühüm rol oynadığını deyib.

YAP Veteranlar Şurasının üzvü, Modern Ailə və İnkişaf İctimai Birliyinin sədri Zərifə Quliyeva söyləyib ki, Heydər Əliyev şəxsiyyəti Azərbaycanın müasir dövlətçilik tarixinin parlaq simasıdır. Xalqımızın yaddaşında silinməz izlər buraxan Ümummilli Lider Azərbaycan dövlətinin xilaskarı, memarı və qurucusudur. Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycanı Prezident İlham Əliyev dünyada güclü və nüfuzlu dövlətə çevirib.

“Səs” Media Qrupunun rəhbəri Bəhruz Quliyev bildirib ki, ümummilli lider Heydər Əliyev milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz işlər görüb. O, Azərbaycan xalqının qəlbində əbədiyaşarlıq qazanıb. B.Quliyev Heydər Əliyevin zəngin irsinin bugünkü uğurlarımızı şərtləndirdiyini xüsusi qeyd edib.

Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara isə üzvlük vəsiqələri təqdim edilib.

Tədbir bədii hissə ilə başa çatıb.

# Ulu Öndərin zəngin siyasi irsi bugünkü uğurlarımızı şərtləndirir

## Ağdaş rayonunda “Heydər Əliyev İli” çərçivəsində tədbir keçirilib

“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Ağdaş rayon təşkilatı oktyabr ayının 13-də Ağdaş rayon Heydər Əliyev Mərkəzində tədbir keçirib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Ağdaş rayon təşkilatının sədri Əlişah Rəcəbov bildirib ki, ümummilli lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.

YAP Veteranlar Şurasının üzvü, “91-lər”dən biri, Azərbaycanın Milli Elmlər Akademiyasının müxbir üzvü, tibb elmləri doktoru, professor Sudeyf İmamverdiyev vurğulayıb ki, ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına həsr edib. Heydər Əliyevin zəngin irsi bugünkü uğurlarımızı şərtləndirir. Sudeyf İmamverdiyev Ümummilli Liderin milli-mənəvi dəyərlərimizə verdiyi dəyərdən danışıb və bu istiqamətdə görülən işlərə diqqət çəkib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov ümummilli lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki müstəsna yeri və rolundan bəhs edib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizin davamlı inkişaf etdiyi, Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycanın yeni zirvələr qət etdiyi xüsusi vurğulanıb.

Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimov söyləyib ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkənin inkişaf strategiyasını müəyyən edib və onun həyata keçirilməsi üçün mühüm addımlar atıb. Heydər Əliyevin müstəqillik dövründə ölkəmizə rəhbərliyi illəri xalqımızın öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.



Partiya fəalları Mirvari Ağayeva və Rüfət Məmmədov çıxışlarında qeyd ediblər ki, inkişaf yolunda inamla irəliləyən müasir Azərbaycan ulu öndər Heydər Əliyevin həyat amalının təntənəsidir.

Tədbirdə ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş inşa-yazı və rəsm müsabiqələrinin qalibləri mükafatlandırılıb.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

# Lider qadınlar

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti üzrə hazırlanmışdır**

Gender bərabərliyi ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadınların bərabərliyini nəzərdə tutur. Azərbaycanda gender tendensiyasının başlamasının tarixi XIX əsrin ortalarından Azərbaycan qadınının savadlanması, sonra onun ictimai həyata xeyriyyəçi kimi qatılması ilə əlaqələndirilir. Azərbaycan həm də Şərqdə, islam aləmində qadına seçmək və seçilmək hüququ verən ilk respublika kimi tarixə düşüb. Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən, xüsusilə də 1994-cü ildən başlayaraq ölkədə sabitliyin bərqərar olması qadınların da ictimai-siyasi həyatda fəaliyyətinin artmasına yol açıb. Bununla bağlı ölkədə dövlət səviyyəsində bir sıra qanun və qərarlar qəbul edilib.

Azərbaycanın Konstitusiyası da kişilərə və qadınlara eyni hüquqları verib. Həmçinin Azərbaycan gender bərabərliyinin təmini üçün mühüm beynəlxalq konvensiyalara qoşulub. Belə ki, Azərbaycan 1995-ci ildə BMT-nin “Qadınlara qarşı ayrıseçkiliyin bütün növ formalarının ləğv edilməsi haqqında” Konvensiyaya qoşulub. 1979-cu ildə qəbul edilən, iki il sonra qüvvəyə minən Konvensiyanın digərlərindən fərqi burada sadəcə cinsi əlamətə görə qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvinin nəzərdə tutulmasıdır. Başqa sözlə, gender neytrallığı tələbinin əvəzinə, konvensiya qadınların bərabərsizliyinin saxlanmasına xidmət edən hər hansı fəaliyyəti qadağan edir. 2001-ci ildə isə Azərbaycan ona aid Fakültativ Protokolu ratifikasiya edib. 1998-ci ildə Heydər Əliyev Qadın Problemləri üzrə Dövlət Komitəsinin (indiki Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi) yaradılması barədə “Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında” sərəncamlar verib. 2000-ci ildə ölkə başçısı “Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” fərman imzalayıb. Fərman bütün dövlət strukturlarında qadınların təmsil olunma



faizinin kişilərlə eyni səviyyədə olmasını nəzərdə tutur. Sonra isə Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Nazirlik və idarələrdə gender siyasətinə məsul koordinatorlar-fokal mərkəzlər fəaliyyət göstərir. 2006-cı ildə ölkədə “Gender bərabərliyinin təminatları haqqında” Qanun qəbul edilib. Müasir Azərbaycanda elə fəaliyyət sferası yoxdur ki, orada qadınlar təmsil olunmasın. Azərbaycan qadını bu gün idarəçilik, qanunvericilik, hüquq-mühafizə, ədliyyə orqanlarında təmsil olunur, məsul vəzifə daşıyır. Hazırda ölkəmizdə qadınlar dövlət və özünüidarətmə orqanlarında, özəl sektorda yüksək postlarda təmsil olunurlar.

Deputat Vüqar İskəndərov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, partiyalar tərəfindən Milli Məclisə layihələr daxil olur, dinləmələrdə hər kəs aktiv iştirak edir: “Bildiyiniz kimi, dinləmələr zamanı Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi rəy sorğusu ilk növbədə deputatların və partiya sədrlərinin, nümayəndələrinin diqqətinə çatdırılır. Burada biz statistikalarla tanış oluruq. Keçirilən sorğuya əsasən, ölkənin 51,1 faizi qadınların siyasi partiya sədri olmasını istəyib. Bu, təbii ki, sevindirici haldır. Cəmiyyətdə gender bərabərliyi çox önəmlidir”.

Deputat qeyd edib ki, biz dünya ölkələrində də qadınların çox önəmli vəzifələrdə olduğunu görürük: “Onların arasında partiya liderləri də var. Bildiyiniz kimi, Azərbaycanda da Birinci Vitse-prezident Mehriban xanım Əliyeva Yeni Azərbaycan Partiyasının sədrinin birinci müavinidir. Mehriban Əliyevanın simasında qadınlar çox aktiv və fəal olaraq Azərbaycanın ictimai-siyasi həyatında iştirak edirlər. Xanımlarımız Mehriban Əliyevanı özlərinə nümunə görür. Xüsusilə sosial, səhiyyə, təhsil və bir çox taleyüklü məsələlərin həllində Mehriban xanımın əməyi və əziyyəti var.

## Qadınlar hakimiyyətin bütün qollarında təmsil olunurlar

Mehriban xanım Əliyeva, həmçinin Heydər Əliyev Fondunun Prezidenti olaraq həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda humanitar layihələri həyata keçirir. Bu günə kimi xeyli sayda dövlətimizin imicini yaxşılaşdıran iri layihələr həyata keçirilib. Bu gün də bu layihələr davam etdirilməkdədir”.

Onun sözlərinə görə, Azərbaycanın mövcud siyasi partiyaları içərisində qadın liderləri olan partiyaların sayı məhduddur: “Təqribən bir və ya iki partiyanın adı qeyd oluna bilər. Qadınlar hakimiyyətin bütün qollarında, vitse-prezidentlik institutu kimi yüksək dövlət vəzifələrində yer almasına baxmayaraq, partiyalar sistemində təmsil olunmur. Bu mənada, ictimai rəy sorğusunun nəticələri qadın liderli partiyaların yaradılmasına ehtiyac olduğunu göstərir. Unutmamalıyıq ki, Azərbaycan Parlamentində də xanımlar təmsil olunur, yəni siyasətlə məşğul olan xanımlarımız çoxdur. Bu baxımdan da gələcəkdə partiyalarda xanımların lider olmasının biz şahidi olacağıq”.

***Günel ABBAS***

# Daha bir post ləğv edildi...

## Proses davam edir

Sentyabr ayında Azərbaycan Ordusunun həyata keçirdiyi 24 saatlıq antiterror tədbirlərindən sonra regionda yeni vəziyyət yaranıb. Artıq separatçılar təslim olub və qanunsuz rejim özünü buraxıb. Qarabağdakı erməni sakinlərin əksəriyyəti isə könüllü şəkildə Ermənistana gedib. Rəsmi Bakı Qarabağın erməni sakinləri ilə reinteqrasiya prosesinə start verib. Artıq bəzi ermənilər Azərbaycan vətəndaşlığı almaq üçün müraciət ediblər.

Qarabağda separatizmin ləğv edilməsindən sonra Rusiya sülhməramlı kontingentinin bölgədə qalıb-qalmaması da müzakirə mövzusuna çevirilib. Xatırladaq ki, antiterror tədbirlərindən sonra sülhməramlıların bəzi postlarının ləğv olunması prosesinə start verilib. Rusiya Müdafiə Nazirliyi sülhməramlıların Əsgəran, Ağdərə, Xocavənd və Şuşa bölgələrindəki postlarını tərk etdiyini açıqlayıb. Oktyabrın 12-də Rusiya Müdafiə Nazirliyi Qarabağda müvəqqəti yerləşdirilən rus sülhməramlılarının daha bir müşahidə məntəqəsinin bağlandığı haqda məlumat yayıb. Bildirilib ki, sülhməramlıların Şuşadakı müşahidə məntəqəsi fəaliyyəti dayandırılıb. Ümumilikdə, sentyabrın 20-dən Əsgəran, Şuşa, Xocavənd və Ağdərə rayonlarında sülhməramlıların 7 müşahidə və 15 müvəqqəti müşahidə məntəqəsi bağlanıb.

Qeyd edək ki, Rusiya sülhməramlılarının müvəqqəti olaraq bölgədə yerləşdirilməsi Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında imzalanmış 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatına əsasən baş tutub. Həmin bəyanatın 4-cü bəndində qeyd olunur: “Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır”.

Azərbaycanın Qarabağ bölgəsində vəziyyətin dəyişməsi, dövlətimizin öz suverenliyini tam təmin etməsi rus sülhməramlılarının gələcəyi ilə bağlı suallar da yaradır. Üçtərəfli Bəyanat 3 ölkə tərəfindən imzalansa da, artıq Ermənistanın Qarabağı Azərbaycanın ərazisi kimi tanıması, bölgədə qanunsuz olaraq yaratdığı qurumun özünü buraxması, qeyri-qanuni hərbi birləşmələrin tərk-silah edilməsi və digər amillər sülhməramlıların gələcəyinə yanaşmada rəsmi İrəvanın mövqeyini əhəmiyyətsiz edir. Xatırladaq ki, Qarabağda antiterror tədbirlərindən sonra Rusiya Prezidentin mətbuat katibi Dmitri Peskov rus sülhməramlıların bölgədə qalıb-qalmaması məsələnin Bakı ilə müzakirə ediləcəyini bildirmişdi. Bugünlərdə isə Valdayda keçirilən Beynəlxalq Diskussiya Forumunda Rusiya Prezindenti Vladimir Putin də sülhməramlıların statusundan danışıb: “Azərbaycan hesab edirdi ki, sülhməramlıların statusu ilə bağlı əlavə saziş imzalamağa ehtiyac yoxdur. Azərbaycansız saziş imzalamaq isə mənasız idi. Rusiya sülhməramlılarının missiyası atəşkəsin qorunmasına nəzarət etmək idi. Orada sülhməramlıların başqa hüquqları yoxdur”.

Göründüyü kimi, bölgədə yeni vəziyyətin yaranması Rusiya sülhməramılarının fəaliyyətində də dəyişikliklərin baş verməsinə səbəb oldu. Son günlər ardıcıl olaraq sülhməramlıların postlarının ləğv edilməsi fonunda Rusiya hərbi təyyarəsinin Füzuli hava limanına eniş etməsi haqda məlumatlar da hərbi inventarın Azərbaycan ərazisindən çıxarılmağa başlanması anlamına gəlir. Antiterror tədbirlərindən sonra Qarabağdakı vəziyyət sülhməramlıların ümumiyyətlə nəzarət zonasının qalmadığını deməyə əsas verir. Hazırda Xankəndidə patrul xidmətini sülhməramlılarla birlikdə Azərbaycan hərbçiləri həyata keçirir. Hətta erməni əhalisinin bir qismi geri qayıtsa belə, eyni vəziyyət davam edəcək, çünki Qarabağda Azərbaycanın suverenliyi tam təmin olunub və müvafiq dövlət qurumları ərazidə fəaliyyətə başlayıb.

***NARDAR***

# 30 il susan...

## AŞPA-dan növbəti qərəz

2020-ci ildə Azərbaycanın öz ərazi bütövlüyünü, 2023-cü ildə isə bütün ərazilərində suverenliyini birmənalı şəkildə təmin etməsi erməni lobbisini, onların havadarlarını məyus etdi. 30 ilə yaxın müddətdə guya “möhkəmləndirilən” qondarma xunta rejiminin cəmisi 24 saata “süqut etməsi” onların planlarını pozub-bununla yanaşı, Azərbaycanın bölgədə güclənməsi, Cənubi Qafqazın real liderinə çevrilməsi, yeni əməkdaşlıqlar platforması ilə bağlı anonslar səsləndirməsi onları “yenidən hərəkətə” gətirir. Bu mənada, artıq bir neçə beynəlxalq “təsisatın” anti-Azərbaycan xarakterli “qətnamələrinin”, “qərarlarının” şahidinə çevrilməkdəyik.

Məsələyə keçməmişdən öncə, qeyd edək ki, heç bir hüquqi qüvvəyə malik olmayan bu kimi “qətnamələr” erməni lobbisinin “könlünü qırmamaq” xarakteri daşıyır. Bundan öncəki proseslərə nəzər salsaq, Avropa Parlamentinin, elə AŞPA-nın bir neçə dəfə bu kimi ermənipərəst qətnamə qəbul etdiyini görə bilərik. Budəfəki qətnamə də onların “davamıdır”.

Bəli, oktyabrın 12-də Avropa Şurası Parlament Assambleyası (AŞPA) 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağda hərbi əməliyyatlarını pisləyən “Dağlıq Qarabağda humanitar vəziyyət” adlı qətnamə qəbul edib. Maraqlıdır ki, bu barədə tələm-tələsik, ala-yarımçıq məlumatı Ermənistanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Ruben Rubinyan sosial şəbəkələrdə yayıb. Rubinyan sənədlərdə guya Qarabağın erməni əhalisinin fiziki “məhv olmaq” təhlükəsi və Azərbaycanın hakimiyyətinin “ermənifobiya siyasəti” səbəbindən öz vətənini tərk etdiyi göstərilir...

### Rubinyan dövlətinin mövqeyini “təkzib edir”?

İlk olaraq, elə Rubinyandan başlayaq. Ermənistan dövlətinin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri funksiyasını daşıyan Rubinyan deyəsən öz ölkəsinin baş nazirinin 24 saatlıq antiterror tədbirləri ilə bağlı mövqeyi ilə tanış deyil. Xatırladaq ki, hələ lokal tədbirlər zamanı Ermənistanın baş naziri Nikol Paşinyan və bu ölkənin siyasi rəhbərliyi keçirilən tədbirləri Azərbaycanın suveren hüququ kimi dəyərləndirmiş, bunun Ermənistana yaxından-uzaqdan aidiyyatının olmadığını bəyan etmişdilər.

Deməli ki, Ermənistanın beynəlxalq qurumdakı nümayəndə heyəti və onun üzvü növbəti dəfə “özbaşnalıq” edir, ölkəsinin bəyanatını, baş nazirinin mövqeyini tanımadığını bəyan edir, ya da... Ermənistanın simasızlığı növbəti dəfə aşkara çıxır - bu ölkə ikiüzlü siyasət yürütdüyünü növbəti dəfə etiraf etmiş oldu...

### Regional təhlükəsizliyə töhfə...

Gələk AŞPA-nın məlum, ikili standarta söykənən, qərəzli və yalan “qətnaməsinə”. Azərbaycan 24 saatlıq lokal antiterror tədbirləri həyata keçirdiyi zaman beynəlxalq hüququn heç bir şərtini pozmayıb, beynəlxalq konvensiyaların ölkəmizin timsalında dünya dövlətləri üçün verdiyi imkanlardan, tanıdığı hüquqdan istifadə edib. Azərbaycan öz addımlarında BMT Nizamnaməsini əsas götürüb. Ölkə ərazisində qeyri-qanuni fəaliyyət göstərən terrorçu xunta rejimini - separatçı qüvvələri zərərsizləşdirib. Ermənipərəst mövqeyə “istinad edərək” reallığa göz yuman “aşpalı” deputatlar həmin terrorçu qurumdan müsadirə olunan silah-sursatın, hərbi texnikaların sayına, “rəngarəngliyinə” diqqət yetirsinlər. Bu qədər silah-sursata malik terrorçu dəstə nəinki Azərbaycana, nəinki suveren ərazimiz olan Qarabağa, nəinki suveren Azərbaycan torpağı olan Qarabağda yaşayan erməni sakinlərinə, bütövlükdə regionun təhlükəsizliyinə açıq təhdid idi. Bu silah-sursatı “toplamış” separatçı xunta rejimi bölgədə reallaşan regional və qlobal layihələrə təhdid yaradırdı. Azərbaycan 24 saatlıq antitetrror tədbirləri ilə bu təhdidin aradan qalxmasına, Cənubi Qafqazın sülh və sabitlik adası kimi beynəlxalq münasibətlər sistemində özünə uyğun yer tutmasına, təhlükəsiz ünvan kimi qlobal layihələrin reallaşdığı məkana çevrilməsinə şərait, zəmin yaradıb. İlk növbədə isə Azərbaycan öz ərazilərində suveren hüquqlarını təmin və bərpa edib. AŞ PA-da təmsil olunan deputatlar bu hüquqi prosedurun uğurla yekunlaşmasını alqışlamalıdırlar - onlar əksinə, erməni lobbisinin təsiri ilə prosesə özünəməxsus “don geyindirməyə” çalışır.




**Heç bir hüquqi qüvvəyə malik olmayan “qətnamə”...**

### Azərbaycanın humanizmi...

AŞPA-nın “qətnaməsində” əsas məqam kimi Qarabağın erməni sakinlərinin bu ərazilərdən getməsi məsələsi vurğulanır. Bir beynəlxalq təsisatın araşdırma aparmadan, real faktlara istinad etmədən, BMT missiyasının hesabatına nəzər yetirmədən, həmin insanların videomüsahibələrinə baxmadan verdiyi “qərar” təbii ki, birmənalı və qərəzli olacaq - indiki halda olduğu kimi.

Xatırladaq ki, antiterror tədbirləri başlayan gün - sentyabrın 19-da yaşayış yerlərinin yaxınlığında atəş vasitələrinin Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yerləşdirilməsini nəzərə alaraq, Azərbaycan Müdafiə Nazirliyi Qarabağ ermənilərinə müraciət edərək mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa çağırmışdı. Həmçinin qeyd olunmuşdu ki, qadınlar, uşaqlar, qocalar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə lazımi tibbi və digər yardımlar göstəriləcək, onlar içməli su və ərzaqla təmin olunacaq. Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri də yaradılmışdı. Bu faktlar humanizmin növbəti göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 27-də ABŞ Prezidentinin xüsusi nümayəndəsi, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbəri Samanta Paueri, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kimi və ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edərkən bildirmişdi ki, antiterror tədbirləri zamanı mülki əhaliyə ziyan dəyməyib, hədəf ancaq qanunsuz erməni silahlı birləşmələri və hərbi obyektlər olub.

Digər tərəfdən, Qarabağın erməni sakinlərinə Azərbaycan dövləti reinteqrasiya proqramı təqdim edib və onların ölkə qanunvericiliyi əsasında bütün hüquq və azadlıqlarının təmin olunacağını bildirib. Bu proses uğurla davam edir və Qarabağ erməniləri arasında Azərbaycan vətəndaşlığını qəbul etmək üçün müraciət edənlər var. Bu isə onu göstərir ki, AŞPA-nın və ya digər beynəlxalq təsisatın erməni lobbisinin təhriki ilə etdiyi bu “canfəşanlıq” yersizdir. Qarabağı tərk edən erməni sakinləri heç kim qovmayıb - onlar öz arzuları və razılıqları ilə həmin regionu tərk ediblər. Təbii ki, Azərbaycan qanunlarını qəbul edərək qayıtmaq arzusunda olanlara heç bir çətinlik və ya əngəl yaradılmır...

### AŞPA alət rolunda...

Əslində, AŞPA-nın bu addımı Azərbaycana qarşı növbəti qərəzin göstəricisidir. Bir neçə ay öncə “Laçın dəhlizi ilə sərbəst və təhlükəsiz girişin təmin edilməsi” haqqında debatların sonunda qəbkl edilən “qətnamə”nin davamı kimi indiki “qətnamənin” qəbulu anlaşılandır - bu, Azərbaycana qarşı növbəti ikidli standartdır. Halbuki Azərbaycan əraziləri 30 il işğal altında olduğu dövrdə insan haqlarını fəaliyyətinin ali prinsipi elan edən AŞPA Azərbaycanın 1 milyon qaçqın və köçkünün vəziyyəti ilə bağlı susurdu. Bunda Avropadakı erməni lobbisinin təsiri böyük idi. Azərbaycan öz torpaqlarını işğaldan azad, ərazi bütövlüyünü, suverenliyini bərpa etdikdən sonra isə AŞPA-dakı ermənipərəst qüvvələr ölkəmizə qarşı qarayaxma kampaniyaları təşkil edirlər. Bütün bunlar qurumun daxilində bəşəri dəyərlərin pərdə arxasına saxlanıldığını və Avropa Şurasının müəyyən dairələrin əlində alətə çevrildiyini təsdiqləyir.

***P.SADAYOĞLU***

# Redikülləri̇n “vətənpərvərlik dərsi”...

## Xalqına xəyanət edən AXCP sədri Azərbaycan gəncliyinin xidmətini danır

Dünyada baş verən bütün qlobal və lokal hadisələri Azərbaycanla “əlaqələndirməyə” çalışan redikül müxalifət nümayiş etdirdiyi “mövqe” ilə özünü ifşa edir. Başqa sözlə, çəkdiyi “müsbət nümunələrin” Azərbaycandakı analogiyasının heç birində yer almayan, iştirak etməyən rediküllər əsl simalarını cəmiyyətə nümayiş etdirirlər. Məsələn, İsraildə baş verən hadisələrlə bağlı sosial şəbəkələrdə post yazan AXCP sədri Əli Kərimli bu ölkədəki səfərlbərliyi “yüksək” qiymətləndirib. Hətta bu mexnizmi “saat kimi işləyən səfərbərlik mexanizmi” adlandıran Kərimli dünyada başqa heç bir dövlətin bu səviyyəli səfərbərlik mexanizmi qura bilmədiyini vurğulayıb. Bir az daha irəli gedən AXCP sədri “biz də daxil olmaqla, bütün dünyanın bu səfərbərlik mexanizmindən öyrənəcəyi çox şey var” kimi qeyd edib: “Ancaq unutmayaq ki, dövlət mexanizmlərini bu qədər mükəmməl işlədən də xalqın öz dövlətinə ürəkdən bağlı olmasıdır. İsraildə orduya səfərbər olunan adamlar nəinki ordudan yayınmadı, üstəlik xaricdə olan hərbi mükəlləfiyyətlilər də kütləvi şəkildə ölkələrinə qayıtdı. İsrailin özündə isə səfərbərliyə cəlb etmə yaşı keçmiş insanlar da orduya qoşulmaq üçün kütləvi müraciət etdi. Deməli, güclü dövləti də, güclü ordunu da qurub ayaqda saxlayan vətənpərvər və güclü vətəndaşdır”.

Əli Kərimli kor təfəkkürü ilə Azərbaycan xalqının 2020-ci ildə milli mənafe uğrunda nümayiş etdirdyi birliyi yenə də kiçildir, gözardı etməyə çalışır. Ermənipərəst xislətə malik, xalqa və dövlətə düşmən kəsilən Kərimli ölkəmizdəki xalq-dövlət birliyinin əldə etdiyi uğurları qeyd etməyə qısqanır - bu, birmənalı şəkildə bəlli olur.

Azərbaycan gəncliyi 2020-ci ildəki çətin günlərdə qürur salnaməsi, qəhrəmanlıq dastanı yazmaq üçün ayağa qalxdı. “Azərbaycan gəncləri fəal, vətənpərvər, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm”, - deyən Prezident İlham Əliyevin bir çağırışı Azərbaycan gəncliyi üçün yetərli oldu - dövlət başçısının həyata keçirdiyi uğurlu siyasətin gənclər arasında vətənpərvərlik hisslərinin daha da artmasına əyani sübut kimi Vətən müharibəsinin ilk günündən gənclərin işğal altındakı torpaqlarının azadlığı uğrunda mübarizə əzmini göstərmək olar. Hələ 2020-ci ilin iyulunda Ermənistanın Tovuzda törətdiyi təxribatdan sonra on minlərlə gənc könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin idarə və şöbələrində qeydiyyata düşdü.

Bundan az sonra başlayan Vətən müharibəsi zamanı gənclərin dövlətə, Vətənə bağlılığının nə qədər əhəmiyyətli olduğuna şahidlik etdik. Könüllü olaraq Vətən savaşında iştirak etmək istəyən gənclərin sayının xeyli artması, Ali Baş Komandan tərəfindən qismən səfərbərliyin elan olunması gənclərin Ali Baş Komandana dəstəyinin bariz nümunəsi idi. Bütün bunların məntiqi nəticəsi olaraq Azərbaycan gəncliyi 44 günlük müharibədə düşmən üzərində parlaq qələbənin əldə olunmasında xüsusilə fərqləndi. Ən əsası isə Azərbaycan gənci həmin günlərdə döyüşdən başqa heç bir şey fikirləşmədi. Bu, dünya tarixində görünməyən bir hadisə idi - bir ordunun bütövlükdə, döyüş günlərində fərarisi olmasın. Əli Kərimli eşitsin və bilsin ki, dünya üçün birliyin, həmrəyliyin, vətənpərvərliyin AZƏRBAYCAN NÜMUNƏSİ var.

O başqa məsələdir ki, həmin çətin günlərdə, Vətən müharibəsi günlərində Əli Kərimli və rəhbərlik etdiyi partiya dövləti və xalqı ilə eyni cərgədə dayanmadı - milli həmrəyliyə, birliyə qoşulmadı. Hər zaman öz şəxsi maraqlarını ölkənin, xalqın mənafeyindən üstün tutan Əli Kərimli Ermənistanın Azərbaycanın konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı ölkəmizin keçirdiyi lokal antiterror tədbirlərinə dəstək Bəyanatına imza atmadı. Başqa sözlə, Azərbaycanın haqq işini rəsmən dəstəkləmədi. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı da siyasi partiyaların Azərbaycan dövlətinə dəstək bəyanatlarına qoşulmayaraq milli həmrəyliyə qarşı çıxan Əli Kərimli satqın, xəyanətkar mövqeyini davam etdirdi. AXCP onu maliyyələşdirən Ermənistanın havadarlarının diktəsi ilə hərəkət etdi. Bu gün İsrail nümunəsi əsasında xalqa “vətənpərvərlik dərsi” keçməyə niyyətlənən Kərimlinin riyakar və simasız olması, siyasi fəaliyyətinin isə xəyanətdən ibarət olması bu məsələdə növbəti dəfə təsdiqləndi...

***MƏNSUR***

# Ermənilәri "qaçqın" etmək üçün...

## Fransa bu statusun əldə olunmasına çalışır

Fransanın ermənipərəst mahiyyəti sirr deyil. Artıq illərdir ki, "ermənipərəstlik" azarından xilas ola bilməyən rəsmi Paris bu "yolda" hətta özünün dövlət imicini belə ləkələməkdən "çəkinmir". Bütün cəhdləri bohşa çıxan, anti-Azərbaycan kampaniyaları fiaskoya uğrayan fransızlar bu kimi addımlarını "davam etdirməklə" ziyanın yarısından qayıtmağı "düşünmədiklərini" nümayiş etdirirlər.

BMT TŞ müstəvisində bir ildə 3 dəfə Azərbaycana məğlub olan rəsmi Parisin yeni "oyunu" isə dünyaya sırınmağa çalışan "erməni məzlumluğunun" növbəti seriyası kimi də qəbul oluna bilər. Belə ki, Fransanın təşəbbüsü ilə bir qrup dövlət 2023-cü il oktyabrın 11-də BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycan əleyhinə birgə bəyanat veriblər. Bəyanatda Azərbaycanın Qarabağ bölgəsindən ermənilərin köçməsinin səbəbləri ilə bağlı əsassız və böhtan xarakterli iddialar yer alıb. Ən maraqlı məqamlardan biri isə, Qarabağdan Ermənistana köçən erməni əhalisinə "qaçqın statusu"nun verilməsi ilə bağlı müddəadır. Təbii ki, bu nə hüquqi, nə də mənəvi formada doğru hal sayıla bilməz.

### Çirkin niyyət və məkr...

Qeyd etmək lazımdır ki, Fransanın bu dəfəki "canfəşanlığı"nın da altında qara və məkrli niyyət yatır-onlar bu yolla Azərbaycanın regionda formalaşdırdığı təzlükəsizlik mühitini inkar, yaradılan birgəyaşayış imkanlarını təkzib etmək, reinteqrasiya ilə bağlı irəli sürülən müsbət addımları və proqramı ikinci plana keçirmək, Azərbaycanın apardığı və humanizmə söykənən siyasi kursa qara yaxmağa çalışırlar. Qarabağı öz arzusu ilə tərk edən insanların "qaçqın" adlandırılması cəhdi beynəlxalq hüquqa zidd olduğu qədər mənəvi haqsızlıq nümunəsidir - bununla onlar Azərbaycanın Qarabağ regionunda yaşayan erməni sakinlərin reinteqrasiyası üçün aparılan genişmiqyaslı fəaliyyəti təkzib etməyə çalışmış olurlar.

### Biri pul yığır, digəri "status" axtarır...

Bəşəri dəyər olan humanizm Azərbaycan dövlətinin yürütdüyü dövlət siyasətinin ən prioritet istiqamətlərindən biridir. Hüququn aliliyinin təmin olunduğu ölkəmizdə bütün vətəndaşlara qarşı yalnız konstitusion çərçivədə davranış sərgilənir. O cümlədən Qarabağdakı erməni sakinlərə qarşı-hələ II Qarabağ müharibəsi dövründə, ondan sonrakı vaxtda Azərbaycan bəyan etdi ki, Qarabağda yaşayan sakinlərin hüquqları ölkə qanunvericiliyi çərçivəsində təmin olunacaq. Antiterror tədbirlərindən sonra Yevlax şəhərində erməni sakinləri qəbul edən Azərbaycanın məsul nümayəndəsi dövlətimizin rəsmi mövqeyini onlara çatdırdı, reinteqrasiya proqramını təqdim etdi. Onların Qarabağı tərk etmək arzuları özlərinin seçimidir və Azərbaycan humanizm nümayiş etdirərək onların bu seçimlərini rahat və təhlükəsiz şəkildə icra olunmasına şərait yaratdı.

Amma görünür, Fransa və Ermənistan öz xoşu və razılığı ilə Qarabağı tərk edən ermənilər üzərindən manipulyasiyalarını davam etdirmək niyyətindən əl çəkmirlər. Ermənistan "himayədarlıq" adı altında qeyri-rəsmi "ianə" toplamağa çalışır, Fransa isə onların "qaçqın" kimi tanınması üçün səy göstərir. Halbuki həmin insanlara təklif edilmişdi ki, Qarabağı tərk etməsinlər və ölkəmizin qanunları çərçivəsində yaşamağa davam etsinlər-Azərbaycan onsuz da dünyada multikultural həyat tərzinə görə nümunəvi ölkə sayılır. Ermənilər də etnik azlıq kimi ölkəmizdə qala və yaşaya bilərlər.





### Erməni hərbçiləri və ailələri necə "qaçqın" sayıla bilər?

Avropa Şurası Nazirlər Komitəsinin sədri Kristianis Karinşin bildirib ki, Qarabağı tərk etmiş "etnik ermənilərin mühacir, yoxsa qaçqın olduğunu aydınlaşdırmaq lazımdır". Həqiqətən də könüllü şəkildə bir ərazidən digərinə köçən insan miqrasiya edir, bunu "qaçqın" kimi təqdim etmək doğrudurmu? Misal kimi Ermənistandan öz xoşu ilə xaricə köç edən yüz minlərlə əhali qaçqındırmı? Bu məntiqə əsaslansaq, bu gün Qərbdə və başqa regionlarda yaşayan ermənilər də "qaçqın" statusu ilə təmin olunmalıdırlar.

Digər tərəfdən, nəzərə alınmalıdır ki, Qarabağdan getmiş etnik ermənilərin mühüm əksəriyyəti Ermənistan silahlı qüvvələrinin hərbçiləri və onların ailə üzvləridir. İşğal dövründə Qarabağda məskunlaşdırılmış, orada qeyri-qanuni olaraq hərbi fəaliyyətlə məşğul olmuş bu insanlar hansı beynəlxalq qanuna əsasən "qaçqın" statusu ala bilər? Bu gün onları "qaçqın" kimi təqdim edən Fransa və digər Qərb ölkələri faktiki olaraq qanunsuz məskunlaşmaya bəraət qazandırırlar. Belə çıxır ki, bir sıra terror təşkilatları işğal etdiyi bölgələrdən çıxarldıqdan sonra "qaçqın" statusu qazanmaq "hüququ" aldə edir? Bu hansı hüquq, hansı haqqdır?

### Azərbaycanlı qaçqınları 30 il gözardı edənlər...

Qarabağı öz arzusu ilə tərk edənlərin "qaçqın" statusu alması üçün təbliğat aparan Fransa görəsən, bu fəaliyyəti 30 il öz doğma yurd-yuvalarından didərgin düşmüş, öz torpağında yaşamaq hüququ məhdudlaşdırılmış, soyqırıma məruz qalmış, ev-eşiyi dağıdılmış, soyuqda ayaqyalın, başıaçıq öz elindən obasından qovulmuş azərbaycanlılara münasibətdə niyə sərgiləməmişdi? Halbuki ATƏT-in Minsk Qrupunun həmsədri kimi bu, Fransanın birbaşa borcu idi. Bu gün rahat, təhlükəsiz, nəyi varsa yığıb və ən əsası öz xoşu ilə Qarabağı tərk edənlərin tam əksinə olaraq 30 il əvvəl azərbaycanlılar ayaqyalın, əyni çılpaq, ölüm qorxusu altında, hər şeylərini arxada buraxaraq dədə-baba yurdlarından qovulmuşdular. Dünyanın gözləri qarşısında baş vermiş bu haqsızlıq sükutla qarşılanmışdı. Bu gün Fransanın haqsız "bəyanatına" imza atan ölkələr 30 il bir milyon azərbaycanlının səsini eşitməmək üçün qulaqlarını qapamışdı. Hətta Azərbaycana yardım etməmək üçün hansısa "qərarlar", "aktlar", "sənədlər" qəbul edilirdi. Bir sıra beynəlxalq tribunalardan səslənən haqq səsimiz eşidilmirdi. Ermənilərin işğalçı siyasətinə fərqli don geyindirməyə çalışanlar o dövrdə haqqı tapdanmış azərbaycanlalıın hüquqlarının müdafiəsinə qalxmırdılar. Amma bu gün Fransanın "qaçqın" statusu tələbi aktuallaşdırılır, dəstəklənir. Bu da "demokratik Qərbin" yürütdüyü və fərqli standartlara söykənən mövqeyinin növbəti nümunəsinə çevrilir...

**P.İSMAYILOV**

# Menendez həm də casus çıxdı...

## Senator erməni arvadının təkidi ilə Misirə "işləməkdə" günahlandırılır

Ermənipərəst mövqeyə malik, Azərbaycana və Türkiyəyə qarşı çıxışları ilə "yadda qalan", sonda isə rüşvət və korrupsiyaya bulaşdığı aydın olan amerikalı senator Robert Menendezə qarşı yeni ittiham aktı irəli sürülüb. Ermənipərəst senator və həyat yoldaşı ABŞ-da xarici agent elan edilib, əmlakları müsadirə oluna bilər. Bu barədə "The New York Times" nəşrinin yazdığına görə, Menendez bu dəfə Senatın xarici əlaqələr komitəsində çalışdığı dövrdə Misir agenti kimi fəaliyyət göstərməkdə ittiham edilir. Federal prokurorlar Robert Menendezi, onun arvadı Nadine Menendezi və üçüncü müttəhim Uael Hananı Ədliyyə Departamentində qeydiyyatdan keçirmədən senatorun Misirin xeyrinə işləməsini təşkil etməkdə gunahlandırırlar. Prokurorlar hakimdən Nyu Cersi ştatında Menendez ailəsinə rüşvət kimi verilmiş mənzilin, həmçinin Mersedes-Benz markalı avtomobilin müsadirə edilməsini istəyiblər. Sözügedən əməllərin Menendezin sadiqlik və inamla bağlı Senat qarşısında ABŞ konstitusiyasına etdiyi andını pozan əməllər olduğu və ona vəzifəsindən istefa verməsi üçün təzyiqləri artıracağı vurğulanıb.

### Erməni Nadine Roberti məhv etdi...

Qeyd edək ki, Robert Menendezin başına gələn bütün "macəralar" məhz onun ikinci evliliyindən sonra-erməni əsilli Nadine Arslanyanla birgə yaşayışından sonra baş verib. "Arslanyan" soyadını Menendezə dəyişən Nadine Livan əsilli ermənidir. Bu evlilik Bob Menendezin yalnız şəxsi həyatını deyil, həm karyerasını, həm də bütövlükdə, düşüncələrini dəyişdi. Arslanyanla tanış olduqdan sonra rüşəvətə, korrupsiyaya bulaşan, təmsl etdiyi dövlətin mənafeyinə zidd mövqe tutan, hətta rüşvət alaraq siyasi bəyanatlar verən Menendez yeni ittihama görə xarici ölkələrə casusluq belə edibmiş-yeni ittihamda onu dövlət məmurlarının xarici qüvvələrin agenti kimi xidmət etməsini qadağasını açıq şəkildə pozduğu qeyd olunub. "Görünür, ABŞ-də ilk dəfə olaraq vəzifədə olan senator 2-ci Dünya Müharibəsi dövrünün Xarici Agentlərin Qeydiyyatı Aktında nəzərdə tutulan davranışlarda ittiham edilir", - "The New York Times"ın araşdırmasında bildirilib.

Vurğulanıb ki, FBİ rəsmiləri və prokurorlar 69 yaşlı Robert Menendez, arvadı 56 yaşlı Nadine Menendez, Uael Hana və digər iki biznesmenə qarşı ötən ay irəli sürülmüş ittihamda Menendez ailəsinin yüz minlərlə dollar, qızıl külçələri və Mersedes-Benz qarşılığında senatorun nüfuzundan istifadə edərək ABŞ-ın Misirə yardımlarının və hərbi satışlarının artırılması sxemi qurublar.

### Menendez "sizin üçün başqa nə edə bilər"?

Təsadüfi deyil ki, ittiham aktında erməni Nadinenin Roberti casus olmağa "şirnikləndirməsi" açıq-aydın yazılıb. Erməni xisləti özünü hər an büruzə verir - 2018-2022-ci illərdə Menendez, onun arvadı və Uael Hana müxtəlif yerlərdə Misir rəsmiləri ilə görüşüb və senatorun rüşvət müqabilində Misir agenti kimi fəaliyyət göstərməsini təşkil ediblər. Qeyd olunub ki, Nadine Menendez 2019-cu ilin mayında Vaşinqtondakı steyk restoranında "Mənim sevgilim sizin üçün başqa nə edə bilər" sualı verib.



Vurğulayaq ki, ötən ay ilk ittiham aktı irəli sürüldükdən sonra Menendez Senatın Xarici Əlaqələr Komitəsinin sədri vəzifəsindən ayrılıb, lakin o, demokratların Senatdan istefa vermək tələbini qəbul etməyib.

### Bahalı hədiyyələr, bahalı səyahətlər...

İttiham aktında senator Menendez digər senatorlara Misir hökuməti rəsmiləri adından məktub yazaraq 300 milyon dollarlıq ABŞ yardımını sərbəst buraxmağa inandırmağa çalışmaqda ittiham edilib. Qeyd olunub ki, Robert Menendez məktubu arvadı Nadine Menendezin təkidi ilə yazıb və daha sonra ona öz şəxsi emaili vasitəsilə göndərib. Nadine Menendez isə Uael Hanaya göndərib və sonuncu emaili Misir rəsmilərinə ötürüb.

İttiham aktında qeyd olunub ki, Robert Menendez Xarici Agentlərin Qeydiyyatı Aktının tələblərindən tam xəbərdar olub. Belə ki, o, həmin dövrdə Ədliyyə Departamentindən Floridadan olan sabiq respublikaçı konqres üzvünün Venezuella ilə əlaqələrinə görə sözügedən qanunu pozub-pozmadığını araşdırmasını istəyib.

Bu, Menendezə qarşı ilk korrupsiya ittihamı deyil. O, 2015-ci ildə zəngin göz həkimindən 1 milyon dollara yaxın dəyəri olan hədiyyələr, bahalı səyahətlər, həmçinin siaysi kampaniya töhfələri almaqda ittiham edilib. İş 2017-ci ildə məhkəməyə təqdim olunsa da, jüri yekun qərar qəbul edə bilməyib.

**SADİQ**

# Qaranlıq fələyin hökmü altında

## Frans Kafkanın "Məhkəmə" romanı haqqında

**Bu romanı dilimizə orijinaldan çevirmiş böyük Vilayət Hacıyevin əziz xatirəsinə**

Otuz yaşının tamam olduğu gün səhər tezdən bank işçisi Yozef K.-nın yataq otağına qara paltarlı bir cüt naməlum şəxs dürtülüb ona həbsinə qərar verildiyini elan eləyir. K. əvvəlcə bunu iş yoldaşlarının onun doğum günü münasibətilə qurduğu tamaşa, oyun sanır. Ancaq söhbət uzandıqca məsələnin ciddi olduğunu sezir. Gələnlərdən biri onun səhər yeməyini iştahayla həzmi-rabedən keçirir, bununla da qəhrəmanın alışdığı yaşayış rejiminin pozulması prosesi başlanır.

Yozef K. iri bir bankın aparıcı əməkdaşlarındandır. O, çox işgüzar adamdır, bütün gücünü, diqqətini karyerasına yönəldib, şəxsi həyata olduqca az vaxt ayırır. Subaydır, elə bir dost-aşnası da yoxdur, ancaq kolleqaları, tabeliyindəki işçilər ona böyük hörmətlə yanaşırlar. Yeganə əyləncəsi pivə içmək, bir də ofisiant işləyən rəfiqəsiylə həftədə bir dəfə görüşməkdir.

Çağırılmamış qonaqlar deyirlər ki, yaxın zamanda ona istintaqın gedişiylə bağlı ətraflı məlumat veriləcək. Yozef çaşqın vəziyyətdədir, nədə suçlandığını anlaya bilmir. Məhkəmə elçiləri ona saygı göstərsələr də, suallarına aydın cavab vermirlər. Müfəttiş deyir ki, həbsi onun gündəlik həyatına təsir göstərməyəcək, o yenə əvvəlki kimi işinə-gücünə gedib gələ bilər. Tutduğu mənzilin sahibəsi Yozefə təskinlik verir, onun zənnincə, K.-nın həbsi nəsə dərin məna, yaxud da hansısa elmi məzmun daşıyır.

Aradan bir neçə gün keçsə də, Yozefin həyatında dəyişiklik baş vermir, o, həbsdə olduğunu yavaş-yavaş unutmağa başlayır. Elə bu vaxt ona zəng vurub istintaq işinə dair dinləmənin qarşıdakı bazar günü keçiriləcəyini deyirlər. Yoxsul məhəllədəki bir binanın çardağı məhkəmə salonu yerinə istifadə olunur. Zal eyni geyimli, eyni görkəmli qaraqabaq adamlarla doludur. Yozef K. söz alıb özünə bəraət qazandırmağa çalışır, ancaq kütlə ona qulaq asmaq istəmir.

Müttəhim bütün ağırlığı öz çiyninə götürüb dolaşıq kələfi açmağa, işin mahiyyətinə varmağa, müdafiəsini təşkil eləməyə çalışır. Yozefə deyirlər ki, onun işinə adi məhkəmə yox, ali məhkəmə baxacaq, di gəl, bunun nə demək olduğunu kimsə anlatmır. Müttəhim ona qarşı irəli sürülən ittihamın məntiqini heç cür tuta bilmir, bu da getdikcə onu ruhdan salır.

Yozefin başına gələni eşidən əmisi onu yaşlı, təcrübəli, həm də xəstə vəkilin yanına aparır. Vəkil işi uzun-uzadı araşdırıb material toplasa da, proses heç cür irəliləmir. Bir tanışı Yozefə məhkəmə rəssamına üz tutmağı məsləhət görür, deyilənə görə, onun qanun keşikçilərinə təsir göstərmək imkanı var. Rəssam onu başa salır ki, Yozefin ittihamdan yayınmaq, tam azadlığa çıxmaq şansı yoxdur, ancaq məhkəmə prosesini təxirə saldırmaq, yaxud uzatmaq olar.

Proses uzandıqca Yozef K.-nın xarakterində qəribə əlamətlər üzə çıxmağa başlayır. O, çəkingən, qaraqabaq adama çevrilir, iş yoldaşlarından gen dolanır, müştərilərdən qorxur, bu səbəbdən işləri əməllibaşlı axsayır. Türmə keşişi ilə təsadüfi görüşü zamanı bəlli olur ki, ruhani işdən tam halıdır. Keşiş Yozefin vəziyyətinin ağır, çıxılmaz olduğunu ondan gizlətmir, onu baş verənlərin labüdlüyünü qəbul eləməyə çağırır.

Üstündən bir il keçir, qara paltarlı kişilər yenə Yozefin ardınca gəlib onu şəhər kənarındakı xarabalığa aparırlar. Adamlardan biri qoltuğundan uzun bir bıçaq çıxarıb onu Yozef K.-nın ürəyinə sancır. Ölüm ayağında Yozef düşünür ki, yəqin özünü yaxşı müdafiə eləyə bilməyib, hansısa boşluqlara yer qoyub. Bununla belə müttəhim nədə ittiham olunduğunu, onu hansı məhkəmənin suçladığını, edamına kimin hökm verdiyini yenə anlamır, canını tapşırmamışdan öz aqibəti haqqında yalnız bu ifadəni beynindən keçirməyə macal tapır: "İti öldürən kimi".

***

Kafka dünyanın ən müəmmalı, ən qapalı yazıçılarından biri, bəlkə də birincisidir. Onun bütün yaradıcılığı-romanları, novellaları, pritçaları, məktubları, söhbətləri bir amansız konsepsiyanın başına fırlanır: dünya fani, fələk zalım, vəziyyət çıxılmaz, insan çarəsizdir. Bunca qədim həqiqəti yeni söz, yeni fikir kimi dilə gətirmək yazıçıdan çox böyük hünər, böyük istedad istəyir.

Modernist yazıçıların çoxundan fərqli olaraq Kafka ateist deyil. Onun Allahı var, ancaq bu Allah, məsələn, Kafkanın çox sevdiyi, hamıdan uca tutduğu Hötenin Tanrısı kimi xilaskar Allah deyil, əzici, qəddar, yaratdıqlarının başından basıb canına vəlvələ salan, müttəhim bəşəriyyətə ölüm hökmü kəsən hakim Allahdır. Kafkanın Allahı insanı daim suç duyğusunun basqısı altında saxlayır, hər kəsi günahına izlədib ölümünə vurdurur. Ona görə də mən bu fövqəlbəşər gücün tanrı yox, Şərq-müsəlman poeziyasının təbiriylə fələk adlandırılmasının tərəfdarıyam.

Fələk elə əzazil bir qüvvədir ki, onun administrasiyası bir yarpağı, bir qarışqanı, bir quşu belə hökmündən qıraqda qoymur. Onun çarxı qarşısına çıxan hər şeyi rəhimsizcə əzib keçir, bütün verdiyi canları qocalda-qocalda, çürüdə-çürüdə, qova-qova mənzil başına çatdırıb yenidən geri alır. Onun öhdəsindən yalnız Tanrı gələ bilər, ancaq Kafka belə bir Tanrının varlığına inanmır. Kafkanın Allahı şeytandan əsla seçilmir.

***

Yüz ildir ədəbiyyat xiridarları arasında aparılan bir mübahisə hələ də çözümünü tapmayıb: Frans Kafkanın "Qəsr"də, "Məhkəmə"də təsvir elədiyi bədheybət, qorxunc qüvvə yerüstü hakimiyyətinmi alleqorik obrazıdır, ya səmavi administrasiyanınmı?

Əlbəttə, kimsə bu mübhəm mexanizmin hər an insanın başına enən ağır çəkicini milyonların taleyinə saraylardan, qəsrlərdən sərəncam verən kralların, imperatorların yumruğu kimi, başımızın üstündə, çardağımızın altında gecə-gündüz ömrümüzə hökm oxuyan məhkəmələrin işini iki dünya müharibəsinin dəhşətlərini qabaqcadan görən bir qərib yəhudinin ictimai-siyasi öncəgörməsi kimi qələmə versə, onu qətiyyən qınamaq olmaz. Bununla belə mən əminəm ki, Kafkanın qəsri də, məhkəməsi də kainatdakı bütün zərrələri dayanmadan qabağına qatıb qovan, planetləri, ulduzları, qalaktikaları mütləq qaranlıqda gecə-gündüz çoban kimi otaran, lazım gələndə qurban verən amansız kosmik gücün rəmzidir.

***

Frans Kafka ona gələcək günlər adından təsəlli verməyə çalışan dostuna əlini vərəmli sinəsinə qoyub belə demişdi: "Gələcək bax burdadır". Dostu ondan elə düşündüyü halda nədən müalicə almağa getdiyini soruşanda yazıçı cavab vermişdi: "Edama məhkum olunmuş hər bir məhbus çalışır ki, hökmün icrasını mümkün qədər yubatsın".

Kafkanın alter-eqosu olan Yozef K. da öləcəyinə inandığı andan edam hökmünün altına girmiş sayılır. Ona deyirlər ki, həbsinə qərar verildiyinə baxmayaraq hələlik həmişəki kimi sərbəst yaşaya, hökmün icrasına qədər gündəlik işləriylə məşğul ola bilər. Müəllifin nəyə işarə vurduğu aşkardır: hər bir insan öləcəyini bilə-bilə heç vaxt ölməyəcəkmiş kimi ömür sürür, həyatdan qənimət götürməyə, dünyadan kam almağa çalışır.

Az sonra Yozef məhbus, məhkum olduğunu unudur, özünü yenə əvvəlkitək azad sanır. Doğrudan da, insan əgər öləcəyini unutmasa, günü ah-vayla keçər. Fəqət tezliklə ona məhkəmə qarşısına çıxmalı olduğunu xatırladırlar. Həqiqətən də, hər bir doğma, tanış insanın ölümüylə fələk bizə aqibətimizi, sonumuzu dönə-dönə xatırladır. Qəbiristanlıqdan qayıdandan sonra isə yaddaşımız yenidən dumanlanır.



**F.Uğurlu**

davamı növbəti sayımızda

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
PressaInform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898

“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







## “Nar” və NETTY ən yaxşı internet layihələrini mükafatlandıracaq

“Nar” Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarının sahəsində irəli sürülən təşəbbüslərə dəstək olmaq məqsədilə, “Netty” ilə əməkdaşlığını davam etdirir. “Netty” münsifləri hər il Azərbaycanın ən yaxşı İT layihələrini və mühüm veb-resurslarını mükafatlandırırlar.

Müsabiqəyə qatılmaq üçün netty.az saytına daxil olaraq layihənizi aşağıdakı 9 nominasiya üzrə təqdim edə bilərsiniz:

Dövlət və Elektron Cəmiyyət

Sosial məsuliyyət və cəmiyyət

Biznes və sahibkarlıq

Maliyyə və banklar

Elektron ticarət və kommersiya

Elm, təhsil və innovasiya

Səhiyyə, idman və turizm

Məlumat və xəbərlər

Mədəniyyət və incəsənət

Hər nominasiyanın 3 alt kateqoriyası var: Vebsaytlar, Tətbiqlər, Sosial kanallar və səhifələr. İştirak ərizələrinin qəbulu üçün son gün 30 noyabr 2023 tarixidir.

“Nar”-ın baş tərəfdaşlığı ilə keçirilən “Netty” Milli İnternet Mükafatı 20 ilə yaxındır ki, Azərbaycan seqmentində həyata keçirilən müxtəlif layihələri tanıdır və mükafatlandırır. “Netty” mükafatı ilə tərəfdaşlıq “Nar”ın Azərbaycanda İKT sahəsinin tərəqqisinə yönələn korporativ sosial məsuliyyət (KSM) layihələrinin məntiqi davamıdır. “Nar”ın layihələri haqqında daha ətraflı: nar.az/projects

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## Standartlaşdırma olmasaydı...

### Təhlükəsizlik normalarının formalaşdırılmasında əsas amil
### 14 oktyabr Beynəlxalq Standartlaşdırma Günüdür

İqtisadi-mədəni inkişafın və insanların həyat səviyyəsinin daimi olaraq yüksəlmə meyli istehsal olunan məhsul və xidmətlərin keyfiyyətinə nəzarətin də əhəmiyyətini artırır. Zəruri bir institusional fəaliyyət kimi standartlaşma da bu mənada, bütün dünyada tarixi təkamül yolu keçərək istər beynəlxalq miqyasda, istərsə də ölkəmizdə iqtisadi inkişafın mühüm amillərindən birinə çevrilib. Məhsul və xidmətlərin rəqabətqabiliyyətinin artmasını, insanların sağlamlığının qorunmasını və eləcə də ekoloji problemlərin də uğurlu həllini təmin edən standartlaşma işi nəticəsində müasir istehlakçını həmişə maraqlandıran keyfiyyət, komfort və təhlükəsizlik məsələləri öz həllini tapmış olur.

Məhz bu məsələlərin diqqətə alınması və onların davamlılığının təmin olunması mühüm problemlərdir və bu problemlərin aradan qaldırılması üçün Beynəlxalq Standartlaşdırma Təşkilatı tərəfindən (ISO) beynəlxalq standartlar müəyyənləşdirilib.

ISO 1946-cı ilin oktyabrın 14-də standartlaşdırma üzrə milli qurumların fəaliyyət güclərinin birləşdirilməsi və işlərinin koordinasiyasının həyata keçirilməsi məqsədilə 25 ölkə nümayəndələrinin Böyük Britaniyanın paytaxtı Londonda toplaşması ilə yaradılıb və rəsmi olaraq 1 il sonra fəaliyyətə başlayıb. 14 oktyabrın Beynəlxalq Standartlaşdırma Günü kimi qeyd olunması ISO-nun prezidenti Faruk Sunterin (Türkiyə) təşəbbüsü ilə 1970-ci ildən qərara alınıb. Bu günün məqsədi standartlaşdırmanın qlobal iqtisadiyyat üçün əhəmiyyəti haqqında məlumatlılığı artırmaqdır. Dünyanın bir çox yerində Beynəlxalq Standartlaşdırma Günü münasibətilə müxtəlif formada tədbirlər, sərgilər, maarifləndirici seminarlar, konfranslar keçirilir.

**Əsas məqsəd nədir?**

İstehsalın effektivliyinin artırılması, istehlakçılara çatdırılan mal, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi, insan sağlamlığının qorunması istiqamətində təhlükəsizlik normalarının daha da təkmilləşdirilməsi, ətraf mühitin qorunması və digər məsələlər standartlaşdırmanın əsas məqsədlərindəndir.

Hər hansı bir beynəlxalq standart təklifinin qəbulu prosesi konkret sahədə müəyyən bazar ehtiyacına cavab verən layihənin hazırlanmasından başlayır, daha sonra üzv dövlətlərin nümayəndələri təklifi müzakirə edir və səs verirlər. Bu proses təxminən 3 il çəkə bilir. Bütün standartlar sistemi əməkdaşlıq üzərində qurulub.

Beynəlxalq standartlar işi daha səmərəli yerinə yetirmək üçün praktik həllər təklif edir. Məsələn, biz hazırda dünyanın istənilən ölkəsində saatın neçə olduğunu və ya ümumiyyətlə, bu gün ayın neçəsi olduğunu asanlıqla öyrənə bilirik. Kağızın müəyyən ölçülərdə istehsala buraxılması,



hər bir ölkənin valyuta üçün öz standartlarını işləyib hazırlaması və s. hər biri beynəlxalq standartlara daxildir. Bu standartlardan istifadə etməklə biz həllin bir hissəsi oluruq.

Beynəlxalq standartlar bu gün avtomobildən tutmuş telekommunikasiyaya qədər bütün texnologiyaların inkişafını təmin edir, ticarətdə texniki maneələri aradan qaldırır və təchizat zəncirlərini təkmilləşdirir. İqtisadiyyatın inkişafında da standartlaşdırmanın rolu böyükdür. Bu standartlara uyğunluq istehlakçılara da kömək edir. Onlar məhsulların təhlükəsiz və ətraf mühit üçün yaxşı olduğunu bilirlər. Standartlar inam yaradır və bunlara sahib olmaqla həyatımızın nə qədər yaxşılaşdığını görə bilərik. Məsələn, beynəlxalq standartlardan və sənayeləşmədən öncə orijinal istehsalçıya getmədən bir maşın və ya ehtiyat hissəsi əldə etməyin heç bir yolu yox idi. Lakin indi biz elektron cihaz alan zaman onun şəbəkələr və ya digər elektron cihazlarla əlaqə yarada biləcəyini bilirik. Çünki onların hamısı bir sıra standart tezliklərlə işləyir. Avtomobillərimiz müəyyən yanacaq növü ilə işləyir, çünki ISO bu tip avtomobillər üçün standart təyin edir.

**Azərbaycanın standartlaşdırma təcrübəsi**

Müstəqil, beynəlxalq qeyri-dövlət və qeyri-kommersiya təşkilatı olan ISO-da dünyanın 164 milli standartlaşdırma orqanı təmsil olunur. Azərbaycan Respublikası 7 iyul 2003-cü ildən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (2003-2008-ci illərdə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi) vasitəsilə tamhüquqlu üzv olaraq təmsil olunur. Hazırda yerli ekspertlərimiz ISO-nun 14 Texniki Komitəsində müşahidəçi və tamhüquqlu üzv olaraq iştirak edir. Azərbaycan Standartlaşdırma İnstitutu 2017-ci ilin dekabr ayından ISO-nun tamhüquqlu üzvüdür.

Azərbaycan Standartlaşdırma İnstitutu respublikamızı beynəlxalq və regional təşkilatlarda milli standartlaşdırma qurumu kimi təmsil edir və ölkəmizdə standartlaşdırma siyasətini həyata keçirir. Bu qurum yerli istehsal məhsullarının keyfiyyət və təhlükəsizliyinin təmin edilməsi məqsədilə ölkəmizdə qüvvədə olan standartları təkmilləşdirir, beynəlxalq, Avropa, bir sıra qabaqcıl ölkələrin norma və standartlarına uyğunlaşdırır.

***Günel ABBAS***

# İdman

## Azərbaycanın güləş yığmaları dünya çempionatına hazırlığın son mərhələsini keçirlər

Güləş üzrə Azərbaycan yığmaları Albaniyanın paytaxtı Tiranada keçiriləcək U-23 dünya çempionatına hazırlığın son mərhələsindədir.

Federasiyadan AZƏRTAC-a verilən məlumata görə, milli komandalar son təlim-məşq toplanışını keçirlər.

Sərbəst güləş üzrə yığma oktyabrın 4-dən Rusiyada hazırlıq prosesinə başlayıb. Vladiqafqazda reallaşan toplanış ayın 18-dək davam edəcək.

Yunan-Roma və qadınlardan ibarət milli komandalar isə dünya çempionatına Bakıda hazırlaşırlar. Məşqlər Azərbaycan Güləş Federasiyasının təlim-məşq bazasında keçirilir.

Qeyd edək ki, 23-29 oktyabr tarixlərində “Feti Borova” idman kompleksində təşkil ediləcək mundialın ilk günlərində sərbəst (23-25 oktyabr), daha sonra qadın (25-27 oktyabr), ən sonda isə yunan-Roma güləşi (27-29 oktyabr) üzrə mübarizə baş tutacaq. Dünya çempionatında I-S kateqoriyalı hakim İntiqam Alıyev ədaləti qoruyacaq.



## Şahmatçımız dünya çempionu olub

İtaliyanın Sardiniya adasında 20 yaşa qədər şahmatçılar arasında rapid üzrə dünya çempionatı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan şahmatçısı Gövhər Beydullayeva yarışda tarixi uğura imza atıb.

O, 9 oyundan 11 xal toplayaraq mundialı birinci pillədə başa vurub.

Azərbaycanın digər şahmatçısı Məhəmməd Muradlı isə 6,5 xalla 13-cü yerdə qərarlaşıb.



## AVRO-2024: Türkiyə millisi səfərdə Xorvatiyaya qalib gəlib

Türkiyə millisi AVRO-2024-ün seçmə mərhələsində növbəti oyununu keçirib.

AZƏRTAC xəbər verir ki, D qrupunda mübarizə aparan “ay-ulduzlular” səfərdə Xorvatiya yığması ilə qarşılaşıb. Görüş qonaqların 1:0 hesablı qələbəsi ilə başa çatıb. Yeganə qolu 30-cu dəqiqədə Barış Alper Yılmaz vurub.

Bu nəticədən sonra xallarını 13-ə çatdıran Türkiyə millisi liderliyə yüksəlib. 10 xalı olan Xorvatiya isə 2-ci pillədə qərarlaşıb.




Qeyd edək ki, qrupun digər oyununda Latviya seçməsi doğma meydanda Ermənistana 2 cavabsız qolla qalib gəlib.

## Millətlər Liqası: Azərbaycan yığmasının növbəti iki oyununun stadionu bəlli olub

Qadın futbolçulardan ibarət Azərbaycan yığmasının UEFA Millətlər Liqasının C qrupunda keçirəcəyi növbəti iki oyunun məkanı müəyyənləşib.




AZƏRTAC AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, səfərdə Farer adaları yığmasına qarşı görüş Klaksvik şəhərindəki “Djupumiru” stadionunda, Bakıda Monteneqro millisi ilə matç isə “Dalğa Arena”da təşkil olunacaq.

Qeyd edək ki, oktyabrın 27-də Farer adaları seçməsinin qonağı olacaq Azərbaycan millisi bundan dörd gün sonra Monteneqronu qəbul edəcək.

## “Golden Boy - 2023” mükafatına namizədlər

2023-cü il “Golden Boy” mükafatına namizədlərin yekun siyahısı məlum olub.

“Report” xəbər verir ki, İtaliyanın “Tuttosport” nəşri Avropanın 21 yaşa qədər ən yaxşı gənc futbolçusu mükafatı uğrunda mübarizə aparan 25 nəfərin siyahısını dərc edib.

Namizədlər arasında Türkiyə millisinin yarımmüdafiəçisi Arda Gülər də var.




Tam siyahı: Cud Bellinqem (“Real”, İspaniya), Camal Musiala (“Bavariya”, Almaniya), Xavi Simons (“Leyptsiq”, Almaniya), Antonio Silva (“Benfika”, Portuqaliya), Alexandro Balde (“Barselona”, ??İspaniya), Florian Virtz (“Bayer 04”, Almaniya), Benjamin Şeşko (“Leyptsiq”, Almaniya), Corcio Skalvini (“Atalanta”, İtaliya), Rasmus Hoylund (“Mançester Yunayted”, İngiltərə), Levi Kolvill (“Çelsi”, İngiltərə), Yohan Bakayoko (PSV, Niderland), Miloş Kerkez (“Bornmut”, İngiltərə), Artur Vermeeren (“Antverpen”, Belçika), Evan Ferqyuson (“Brayton”, İngiltərə), Lukas Qurna-Duat (“Zaltsburq”, Avstriya), Varren Zair-Emri (PSJ, Fransa), Usman Diomande (“Sportinq”, Portuqaliya), Arnau Martines (“Jirona”, İspaniya), Matis Tell (“Bavariya”, Almaniya), Andi Diuf (“Lans”, Fransa), Arda Gülər ??(“Real”, İspaniya), Bilal El-Hannus (“Genk”, Belçika), Martin Baturina (“Dinamo”, Xorvatiya ), Joao Neveş (“Benfika”, Portuqaliya), Lamin Yamal (“Barselona”, ??İspaniya).

Qeyd edək ki, “Golden Boy” mükafatı 2003-cü ildən təqdim edilir. 2022-ci ildə bu titula İspaniyanın “Barselona” klubunun yarımmüdafiəçisi Qavi layiq görülüb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 6833**
**Sifariş: 2647**
“Kapital Bank”ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Günel Abbas